# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

### "Azərbaycan bu prosesə qarşı addımların qarşısını qətiyyətlə alacaq"



4

# Böyük Qayıdışın Ağdərə səhifəsi!



2

SƏS
№ 050 (7218)
19 mart 2025-ci il.
Qiymәti 60 qәpik

# USAİD, GİPA və son




8

### "Zəngəzur dəhlizi Azərbaycanın qarşıya qoyduğu əsas hədəflərdən biridir"



11

### Erməni CİNAYƏTİ: Bakı metrosunda törədilən terror aktından 31 il ötür



14

### Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi qeyd ediləcək



4

### Sonbeşikdən çox sevilir ilk beşiyə qoyulan



6

### 1 insana qarşı mənəvi terrorun 1000 manatlıq cəzası



11

# Böyük Qayıdışın Ağdərə səhifəsi!

***Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində baş tutmuş Zəfər, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə səfər edərək, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı mesajlarını verir. Hər bir ərazidən qalib ordunun və dövlətin qalib SƏRKƏRDƏSİ kimi səsəni ucaldır və dünya bunu görür, eşidir.***

Artıq Qalib bir Sərkərdə kimi Cənab Prezident beşinci ildir ki, azad olunmuş torpaqlarımızda bayram tonqallarını qalayır. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, 2023-cü ildə Talış kəndində, 2024-cü ildə isə Xankəndi şəhərində. Bu qalanan bayram tonqalları yurdumuzun yaşamasıdır, varlığıdır, sahib olduğumuz torpaqlara qayıdışımızdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən bir qrup sakinlə görüşüb və kənd sakinləri ilə birlikdə Novruz tonqalını alovlandırıblar. Novruz tonqalını alovlandırması buranın əzəli sakinlərinin yurd yeri olduğunu bir daha təsdiqləyir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmçinin









martın 18-də Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak edib, yeni mənzillərə köçən kənd sakinlərinə evlərin açarlarını təqdim ediblər.

2020-ci ilin noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni səhifə, salnamə oldu. İşğal altında olan şəhər, kənd və qəsəbələrimizin Azərbaycan ordusu tərəfindən azad olunması, eləcə də Şuşanın azad edilməsi və noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi artıq düşmənin çıxılmaz vəziyyətdə olduğunu ona anlatdı və məğlubiyyəti ilə üz-üzə qaldı. Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi və düşmənin ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yox idi. 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı və bu mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası idi. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi. 2023-cü ilin sentyabrın 19-da başlayan və təqribən 24 saat davam edən lokal antiterror tədbirləri Azərbaycan tarixinin şanlı səhifələrindəndir. Vətən müharibəsindəki tarixi Qələbəmizdən və Ermənistanın kapitulyasiyasından sonra Azərbaycan dövləti humanizm göstərərək, ölkəmizin erməni əhalisi ilə reinteqrasiya prosesinə start verdi. Vətən müharibəsində qəhrəmanlıq göstərən Azərbaycan Ordusu bu dəfə də yüksək peşəkarlıq nümayiş etdirərək, Ali Baş Komandanın onların qarşısında qoyduğu tapşırığı cəmi 24 saatda yerinə yetirdi.





Ardı Səh. 3

# Böyük Qayıdışın Ağdərə səhifəsi!

Əvvəli səh. 2

Nəticə olaraq separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb. 30 ilə yaxın işğal altında olan və 44 günlük Vətən müharbəsi zamanı azad olunan ərazilərimiz hər kəsə qürur yaşatdı.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin vəsiyyətini və Azərbaycan xalqının arzularını reallaşdırdı.

Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu doğma torpaqlarımızı işğaldan azad etdi və biz artıq həmin ərazilərdə Novruz bayramını qeyd edirik.

Bu gün Azərbaycan tarixi hadisələrlə zəngin bir dövrü yaşayırıq. Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə malikdir. Ölkəmiz regionda və dünyada sayılır və dövlətimizlə hesablaşırlar. Bunun arxasında əzmkarlıq, mübarizlik və düşünülmüş uzaqgörən siyasət dayanır. İşğaldan azad olunan ərazilərimizdə yeni, qaynar dövr başlayıb. Abadlıq-quruculuq işləri aparılır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, biz öz torpağımızı, beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərini güc tətbiq edərək azad etmişik, BMT Nizamnaməsinə uyğun şəkildə öz ərazi bütövlüyümüzü təmin etmişik, düşməni qovmuşuq, Ermənistan ordusunu məhv etmişik, diz çökdürmüşük: ”Bu, bizim haqlı vəzifəmizdir. O cümlədən burada, Talış kəndində, Suqovuşan qəsəbəsində, Hadrutda, Şuşada, bütün başqa azad edilmiş torpaqlarda qurub-yaradırıq”



## UMUDLU KƏNDİNƏ GEDƏN AVTOMOBİL YOLU





## YENİDƏNQURMADAN SONRA

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər. Qeyd edək ki, Prezident İlham Əliyevin ötən il imzaladığı Sərəncama uyğun olaraq Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması işləri yüksək səviyyədə həyata keçirilib. Dördüncü texniki dərəcəli avtomobil yolunun uzunluğu 9,4 kilometr, hərəkət zolaqlarının eni isə 6 metrdir. Yolda nəqliyyatın rahat və təhlükəsiz hərəkəti üçün zəruri işlər görülüb. Azərbaycanın dövlət siyasətində yol infrastrukturunun yaxşılaşdırılması prioritet istiqamətlərdəndir. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən, yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər işğaldan azad olunmuş ərazilərdə də sürətlə davam etdirilir. Bu ərazilərdə icra olunan yol layihələri yenidən öz doğma torpaqlarına qayıdan əhalinin həyat şəraitinin yaxşılaşdırılması, iqtisadi əlaqələrin gücləndirilməsi və təhlükəsiz nəqliyyat şəbəkəsinin təmin edilməsi baxımından da önəm daşıyır. Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması da belə mühüm layihələrdən biridir. Həyata keçirilən yenidənqurma işləri bu yolda rahat gediş-gəlişi təmin edəcək, yük və sərnişin daşınmasını asanlaşdıracaq, bölgənin turizm potensialının inkişafına da töhfə verəcək.





## SUQOVUŞAN KƏNDİNDƏ MƏSCİD

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Suqovuşan kəndində məscidin açılışında iştirak ediblər. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini 2022-ci ildə qoymuşdular. Ümumi ərazisi 0,6 hektar olan kompleksə məscid binası, köməkçi bina, dəstəmaz otağı və avtodayanacaq daxildir. İki mərtəbədən ibarət olan məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr təşkil edir. Burada kişilər və qadınlar üçün ibadət zalı var. Məsciddə eyni vaxtda 110 nəfərin ibadət etməsi üçün şərait yaradılıb.

Qeyd edək ki, işğal dövründə vandalizmə məruz qalan mədəni-dini obyektlər sırasında İslam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri mütləq əksəriyyət təşkil edir. Qarabağda rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdı. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir və bir neçəsi artıq istifadəyə verilib.

Qeyd edək ki, 3 oktyabr 2020-ci il tarixində erməni işğalından azad olunan Suqovuşan kəndinin adı ermənilər tərəfindən dəyişdirilərək Madagiz adlandırılmışdır. Azərbaycan ordusu tərəfindən işğaldan azad olunan Suqovuşan da tarixi adına qovuşdu. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması ilə tarixi adı bərpa olundu. ”2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!” - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdi.

Suqovuşan yeni dövrünü yaşayır. Bildiyimiz kimi, Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin ”N” saylı hərbi hissəsi fəaliyyət göstərir. Hərbi hissənin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqəsi, qazanxanalar, mağaza, 174 nəfərlik yeməkxana binası yaradılıb. Hərbi hissənin qərargah binasında hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Əsgər yeməkxanası da müasir səviyyədədir.

Qeyd edək ki, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.

İşğaldan azad edilən ərazilərdə hərbi hissələrin açılması, ən müasir texnikalarla təchizatı onu göstərir ki, Azərbaycan hərbi təhlükəsizliyini xüsusi diqqətdə saxlayır. Bunun üçün kifayət qədər imkan, ən əsası siyasi iradə var. Digər tərəfdən, cəmiyyət də dövlətin bu istiqamət üzrə siyasətini dəstəkləyir və birmənalı şəkildə dövlətin yanında olduğunu nümayiş etdirir.

Suqovuşanın yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Görülən və görüləcək işlər böyük quruculuq, abadlıq işləridir. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli sakinlərin bu torpaqda rahat, firavan yaşamasına istiqamətlənib.

***Zümrüd BAYRAMOVA***

# "Novruz bayramının hər evə, hər ocağa səadət və bol ruzi-bərəkət gətirməsini diləyirəm"

## Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



***Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı təbrikində bildirib:***

"Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıram.

Ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir. Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur.

Novruz bayramı milli təfəkkürümüzün ayrılmaz parçası kimi ənənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizi sivilizasiyaların qovuşuğundakı qədim mərkəzlərdən biri olaraq tanıtmış misilsiz mənəviyyat xəzinəmizdə Novruz mərasimləri xüsusi mövqeyə malikdir. Baharın gəlişinin əsrlərin yaddaşında iz qoymuş adətlərə uyğun şəkildə bu gün də rəngarəng el şənlikləri ilə Vətənimizin hər bir guşəsində geniş qeyd edilməsi tarixi-mədəni irsə bağlılığımızın parlaq ifadəsidir.

Cəmiyyətdə ünsiyyəti, qarşılıqlı səmimi münasibətləri dərinləşdirən və bizi azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir. Əminəm ki, bu həmrəylik duyğusu yaz fəslinin yeniləşdirici ab-havası və beşinci ildönümünə hazırlaşdığımız şanlı Zəfərin verdiyi mənəvi güclə vəhdətdə ümumxalq əhəmiyyətli bütün işlərimizin lazımi səviyyədə icrasını təmin edəcəkdir. Bayram sevincini işğaldan azad olunmuş əzəli torpaqlarımızda yaşayan soydaşlarımız əbədi qayıtdıqları öz dədə-baba yurdlarında aydın səma altında əmin-amanlıq içində daim şövqlə qurub yaradacaqlar.

Üzümüzə gələn Novruz bayramının hər evə, hər ocağa firavanlıq, səadət və bol ruzi-bərəkət gətirməsini diləyirəm. Bayramınız mübarək olsun!".

# Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi qeyd ediləcək

SƏRƏNCAM



Prezident İlham Əliyev "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirəcək. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

Sərəncamda qeyd olunur ki, 2025-ci ildə ölkənin ali elmi təşkilatının - Azərbaycan Milli Elmlər Akademiyasının təsis edilməsinin 80 ili tamam olur.

Azərbaycan Milli Elmlər Akademiyası yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin bir yol keçmiş, respublikanın elmi-intellektual potensialını milli sərvətə çevirən mərkəz kimi tanınmışdır. Akademiyanın ötən müddət ərzindəki səmərəli fəaliyyətinin əsasında elmin zamanın tələblərinə uyğun prioritet problemlərinin araşdırılması, ən müxtəlif elmi istiqamətlər üzrə yüksək hazırlıqlı kadrların yetişdirilməsi, elmi məktəblərin formalaşdırılması və nüfuzlu beynəlxalq elm qurumları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi prinsipləri dayanmışdır. Bu gün də Akademiya elm sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsində fəal iştirak edir, sosial-humanitar tədqiqatlarla cəmiyyətin yeni biliklərə yiyələnməsi və elmi-mədəni səviyyəsinin yüksəldilməsi işinə töhfələr verir.

# "Azərbaycan bu prosesə qarşı addımların qarşısını qətiyyətlə alacaq"

**"Ermənistan Baş nazirinin ofisinin Azərbaycana qarşı tamamilə əsassız iddialarla yanaşı, yerdəki reallıqları və sərhədyanı bölgələrdə atışma faktlarını təhrif edən 2025-ci il 18 mart tarixli bəyanatını qətiyyətlə rədd edirik."**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Baş nazirinin ofisinin sərhəddə atışmalar və digər anti-Azərbaycan iddiaları ilə bağlı bəyanatına dair şərhində bildirilib.

Vurğulanıb ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bəyan etdiyi atəş açılması hallarına, eləcə də Ermənistan tərəfinin də xəbərdar olduğu videoçəkilişlərdə görünən Ermənistan hərbi qulluqçularının açıq təxribatlarına son qoyulması sabitlik üçün zəruri şərtdir. Xoşməramlılıq nümayiş etdirmək və bu cür təxribatlara son qoymaq əvəzinə, Ermənistan tərəfinin mücərrəd və praktiki olaraq qeyri-mümkün təkliflərinin Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın işğalı müddətində olduğu kimi, heç bir əsası yoxdur. Bu, işğala son qoymağa çağırış etmək əvəzinə, Minsk qrupu həmsədrlərinin irəli sürdüyü təklifləri xatırladır.

Əgər Ermənistan hökuməti Baş nazirin ofisinin də bəyan etdiyi kimi, sülh gündəmini rəhbər tutursa, o zaman sərhədyanı ərazilərdə hücum silahlarının yerləşdirilməsi də daxil olmaqla, kütləvi hərbiləşmənin Ermənistanın belə bir gündəliyinə necə xidmət etdiyi barədə izahat verməsi yerinə düşərdi.



İki ölkə arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin mətninin yekunlaşdırılması ilə bağlı Ermənistanın guya xoşməramlı olmasına gəlincə, məhz Azərbaycanın sülh sazişi üzərində işləmək təklifi ilə ilk addımları hələ 2022-ci ilin əvvəlində atmasına baxmayaraq, Ermənistanın bütün vasitələrlə prosesi necə pozduğu faktını xatırlatmaq yerinə düşər. Onu da qeyd edək ki, Ermənistanın danışıqlarda tərətdiyi çoxsaylı çağırışlara, o cümlədən Azərbaycan ərazilərindən qalan qüvvələrini çıxarmaqdan imtina etməsinə və ərazilərimizdə qurduqları rejimi təşviq etməsinə baxmayaraq, məhz Azərbaycanın səyləri və tədbirləri nəticəsində prosesdə belə bir nailiyyət əldə olunub.

Eyni zamanda, Azərbaycana qarşı ərazi iddialarına son qoymaq üçün konstitusiyaya dəyişiklik edilməsi barədə uzun müddət bundan əvvəl irəli sürülmüş tələbimizdən xəbərdar olmasına baxmayaraq, Ermənistanın bu çağırışa məhəl qoymaması olduqca narahatlıq doğurur. Danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Bununla yanaşı, ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq.

Diqqətə çatdırılıb ki, 30 ilə yaxın müddətdə məhz tərəf olduğu beynəlxalq müqavilələr və silahlara nəzarət mexanizmləri çərçivəsində öhdəliklərini kobud şəkildə pozan, Azərbaycana qarşı təcavüz törədən, ərazilərimizin işğalı müddətində əksər hərbi texnikasını və silah sistemlərini ölkəmizin ərazisində qeyri-qanuni yerləşdirməklə beynəlxalq silahlara nəzarət mexanizmlərindən gizlədən ölkə kimi Ermənistanın belə mexanizmlərdən danışmağa mənəvi haqqı yoxdur.

Kommunikasiyaların açılması məsələsinə gəldikdə, Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinə baxmayaraq, Ermənistan bu öhdəlikləri 4 il ərzində yerinə yetirməyib. Bunun əvəzinə, onlar diqqəti prosesdən və öhdəliklərindən yayındırmaq məqsədilə, mahiyyətcə əhəmiyyəti olmayan, icrası çətin və praktiki cəhətdən uzun marşrutlar üzrə təkliflər irəli sürüblər. Əgər Ermənistan tərəfi həqiqətən də bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, öhdəliklərindən boyun qaçırmamalı və bölgədəki yeni reallıqlara uyğun şəkildə kommunikasiyaların açılması istiqamətində praktiki addımlar atmalıdır. Azərbaycan bütün istiqamətlərdə sülh səylərini davam etdirəcək və bu prosesə qarşı addımların qarşısını qətiyyətlə alacaq.

# “Torpaq əlimdə, bahar ürəyimdə” yarmarkasında baş verənlər

Xalqımızın sevimli bayramlarından olan Novruz bayramına artıq sayılı günlər qalıb. Azərbaycanda Novruz ilin başlanğıcı, yazın gəlişi və təbiətin oyanması kimi təsvir edilir. Bu bayramın tarixi qədim köklərə dayanır və bayrama qədər 4 çərşənbə həyata keçirilir ki, bunların da öz adət-ənənələri var. Bu gün də İlaxır çərşənbəsidir. Hansı ki, sonuncu olan Torpaq çərşənbəsində qədim inanclara görə fallar edilir, papaq atılır, süfrələr bəzənir, insanlar bir araya toplaşırlar. Hazırda Fəvvarələr meydanında yerləşən ”Torpaq Əlimdə, Bahar Ürəyimdə” xeyriyyə yarmarkasındayıq. Bu yarmarka əsl Bayram ab-havası yaratmaqla eyni zamanda yardıma ehtiyac duyan ailələrə ümid işığı olur. 2019-cu ildən etibarən hər bayranda bu yarmarka təşkil edilir. Belə ki, yarmarka sponsorlarının maliyyə dəstəyi və yarmarkada qurulan evlərin kirayəsindən toplanan bütün vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyat xərclərinin qarşılanmasına sərf edilir.



## Bəs gəlin görək bu il yaradılan yarmarkadakı vəziyyət necədir?

Yarmarkaya ilk daxil olduğumuz zaman İtalyan mətbəxinə məxsus olan Fettucihini stendinə yaxınlaşdıq. Satıcı İsgəndər Rzazadənin sözlərinə görə, makaron növü olan bu qidanın qiyməti 7 manatdan başlayır: ”Bu qidaya olan maraq yüksək səviyyədədir. Hər kəs bu yeməklə maraqlanır. İlk dəfədir ki, biz bu yarmarkada iştirak edirik. Hər şey çox yaxşıdır. İnsanların yarmarkaya olan marağı yüksək səviyyədədir. Novruz bayramı münasibəti ilə hər kəsi təbrik edir, süfrələrinə ruzi-bərəkət arzulayırıq”.



Daha sonra rəngarəng stendi ilə diqqətimiizi gəlb edən ”Waffle” stendinə yaxınlaşdıq. İkinci ildir yarmkarkada fəaliyyət göstərirlər. Dondurmalı ”waffle”ların qiyməti 18 manatdan başlayır. İnsanlar bundan çox istifadə edirlər. Yəni yarmarkada bu məhsula olan maraq möhtəşəm səviyyədədir.Hər il insanların marağı bu cür qidalara daha çox artır.



Son bir ildir öz satış rekordları ilə insanları özünə cəlb etməyi bacaran ”Dubay şokoladı” da yarmarkada var idi. Satıcının sözlərinə görə, ötən illə nisbətən bu il ”Dubay şokoladı”na olan maraq daha çox azalıb: ”Bayram günləri olduğu üçün hazırda satış edə bilirik. Bu stendə ”Dubay şokolad”ı 24 manatdır, pudinqlərimiz isə 8 manatdır. İnsanlar daha çox pudinqlərdən daha çox alırlar”.





Türk mətbəxinə aid olan və dəniz məhsulu sayılan mideydə yarmarka daha çox satılan qidalar arasında idi: ”Mideylerimizin porsiyasi 5 manatdan başlayır. Bununla yanaşı ”çiğköfte”də satırıq. İki ildir bu yarmarkada satış edirik. Ötən ilə nisbətdə insanların yarmarkaya olan marağı daha çoxdur.

Maraş dondurması satılan stendə isə dondurmanın qiyməti 3 manat təşkil edirdi. Satıcı Əli Əliyevin sözlərinə görə, artıq 4 ildir ki, bu yarmada iştirak edirlər. Dondurmaya daha çox yay aylarında insanlar üstünlük verirlər. Lakin buna baxmayaraq yenə də insanlar dondurma yeməyi sevirlər. Yarmarkada da bu dondurmaya olan maraq bizi qane edir”.



Yarmarkada ilk dəfə öz stendini yaradan Fərrux bəy isə Azərbaycanın gözəl bölgələrindən biri olan Qubanın şirniyyatlarını bişirib, satışa çıxarmışdır. Onun sözlərinə görə, şirniyyatların qiyməti 4 manatdan başlayır. Quba paxlavası, halvası, sarması və s. Hər biri təzə və dadlıdır. Bu şirniyyatları kim dadırsa məmnun qalır. Paxlavalar 3, burmalar isə 4 manatdır.



Pendir dönəri isə ölkədə bir ilk olduğunu deyə bilərik. Satış menecerinin sözlərinə görə, bu dönər Zaqafqasiya ölkələri arasında bir ilkdir: ”Qiyməti 7 manatdır. Yeni bir qida növü olduğu üçün insanların buna olan marağı çox yüksəkdir. Bu pendir xüsusidir, heç vaxt ərimir. Bu pendir növü Azərbaycan da hazırlanır. Amma dadı tam fərqlidir. Buna görə də bir çox insanlar araqlanır. Yəni lavaşın arasında dönər yerinə pendir qoyuruq. Tamamilə vegeterian bir qidadır”.



Hər il yarmarkada yemək stendləri ilə yanaşı kiçik sahibarlar da öz əl işlərini və yaməhsullarını satışa çıxardırlar: ”Üç ildir ki, bu yarmarkada iştirak edirik. Əsasən qadınlar üçün akssesuarlar var burada. Bir çox xanımlar hər il gəlib bizdən bəyəndikləri məhsulları əldəe də bilirlər. Yarmarkada da bizim məhsullara xüsusi endirimlərimiz var”.





**Şəhər sakini Əli Niftullayev:** ”Artıq davamlı olaraq hər bayramda bu cür yarmarkalara üz tuturuq. Çox bəyənirəm bu yarmarkaları. Qitymətlər normaldır. Hər cibə və ağız dadına uyğun burada qidalar satılır. Ab-hava çox yaxşıdır. Olduqca zövq alırıq”.



**Şəhər sakini Məlik İsmayılov:** ”Yarmarkaya ilk dəfədir gəlirəm. Hələ ki, heç bir məhsul almamışam. Amma alacam. Ümumi ab-havanı çox bəyəndim. Düşünürəm ki, bu cür yarmarkalar davamlı xarakter daşımalıdır”.



**Şəhər sakini Rza Seyidli:** ”Hər il davamlı olaraq ailəmlə birlikdə bayram yarmarkasına gəlirik. Qiymətlər yaxşıdır. İndi də qızıma şar aldım bir manat idi. Çox razıyıq”.



**Şəhər sakini Abbas Quliyev:** ”Hər şey əladır, çox bəyəndim. Hər şeydən razı qaldım. Sevinirəm ki, ölkəmizdə belə yarmarkalar yaradırlar”.



**Şəhər sakini Faiq Hüseynli:** ”Belə yarmarkalar turistlərin marağına səbəb olur. Onlar bizim milli şirniyyatlarımızla və atributlarımızla tanış olurlar. Yarmarkada bir çox qidaların dadına baxmışam. Qiymətlər normaldır. Xaricdə bundan 5 qat bahadır”.



**Şəhər sakini Qəmər Vəliyeva:** ”Nəvələrimi gəzməyə çıxartmışam. Hələ nəsə almamışıq. Amma alacayıq. Ab-hava çox yaxşdıır. Bayram olduğunu hiss edirik. Bütün Azərbaycan xalqının bayramını təbrik edirik”.

***Banuçiçək Hüseynli***

# Qalib və qürurlu olmağın təntənəsi






***ELNARƏ AKİMOVA***
***Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru***

***Prezident İlham Əliyevin "Euronews" televiziyasına verdiyi müsahibədə əmin-arxayın şəkildə prosesləri dəyərləndirməsi ilk növbədə, ölkə başçısının böyük siyasi lider olmasının növbəti göstəricisi sayılmalıdır. Milli maraqlar məsələsində heç kəsə, heç bir dövlətə güzəştə getməyən dövlət başçısının bu gün qürurlu və güvənli görünən obrazının arxasında bu gün var olan, yenidən qurulan, azad, abad Azərbaycan dayanır. İlham Əliyev dünyada baş verən proseslərə öz təcrübəsindən, nüfuz və sərştəsindən, bütün çətinlikləri dəf edərək çatdığı həqiqətlərdən çıxış edərək fikir bildirir.***

Məhz öz ölkəsinin təcrübəsinə əsaslanaraq, heç bir əlavə köməyə, yardıma bel bağlamayaraq irəli getməyin, qalib olmağın, uğur qazanmağın yollarını göstərir müsahibəsində İlham Əliyev, Azərbaycanın bundan sonrakı inkişafında da şəxsi potensiala və daxili resurslara güvənərək irəliləyəcəyini önə çəkir. "Bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki, beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var. Lakin aydın olan odur ki, birincisi, hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var".

İlham Əliyev haqlı olaraq, bu təşkilatları zəif və iflic statusunda təqdim edir. 30 il ərzində beynəlxalq hüququn Qarabağ probleminə qarşı susqun, etinasız münasibəti bu baxımdan, meydanda olan bariz nümunədir. Prezident İlham Əliyev müsahibəsində Cənubi Qafqazın qarşıdurma və düşmənçilik bölgəsi olduğunu, zaman-zaman hərbi təcavüz və böhranların predmetinə çevrildiyini bildirərək tarixi yaddaşa yenidən ekskurs edir və yeni dövrün reallığı və çağırışları kontekstində vəziyyəti dəyərləndirməyə çalışır: "Hazırda nisbətən sakit dövrdəyik və diqqətimizi buna yönəltməliyik. Növbəti hərbi qarşıdurmanı istisna edəcək əhatəli təhlükəsizlik mexanizmləri yaratmalıyıq və sovet dövründə olduğu kimi qonşuluq şəraitində yaşamağa çalışmalıyıq".

Ölkə başçısının müsahibəsi hər zamankı kimi milli maraqların üzərində qurulmaqla, həmçinin dünyada baş verən münaqişə və ziddiyyətlərə vurğusu ilə də seçilir. Yaxın tarixdə hansı proseslər baş verəcək, hansı təbəddülatlar gerçəkləşəcək, ölkələr arasında müharibələr bitəcəkmi? İlham Əliyev şəxsi təcrübə və qənaətlərinə əsaslanaraq, analiz və təhlillərini sərgiləyir. Azərbaycan-ABŞ münasibətlərinin dinc məcraya düşməsini bildirir, Rusiya-Ukrayna arasında davam edən müharibə ilə bağlı qənaətlərini bölüşür və Azərbaycan-Ermənistan arasında hələ də həllini gözləyən sülh müqaviləsini yenidən aktuallandırır. Prezident haqlı olaraq bildirir ki, sülh müqaviləsi imzalanmayınca müharibə bitmiş sayılmır. Doğrudan da belədir, bu gün bizimlə Ermənistan arasında hərbi savaş bitsə də, təbliğat, təşviqat, informasiya mübarizəsi davam edir. Və bu, ona görə davan edir ki, Ermənistan dövləti öz öhdəliyindən yayınır, başqa havadarlar və dəstəklər arayır, milli maraqlarını və xalqının asudə yaşamını nəzərə almır.

İlham Əliyev hər zamankı kimi, yenə də sülhə və gərginlikləri yox etməyə çağırır dünya dövlətlərini. Heç bir təsisata güvənmədən ayaq üstə dayanmağın, güclənməyin, öz taleyinin sahibi olmağı bacarmanın yollarını nişan verir: "...əgər siz həmişə kiminsə yardımına bel bağlasanız, birincisi, bu, sizi zəiflədəcək, ikincisi, bu yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz. Çünki əgər siz həmişə kimdənsə asılısınızsa və həmişə kimdənsə yardım istəyirsinizsə, onda bir gün gələcək, həmin şəxs gəlib sizdən hesabat istəyəcək".

XII Qlobal Forum Prezident İlham Əliyevin "Euronews" televiziyasına verdiyi müsahibədə ideyaların toqquşmasına rəvac verən platforma olaraq dəyərləndirilir. İlk növbədə, foruma qatılan 50-də artıq sabiq dövlət və hökumət başçılarının siyasi potensialına, təcrübə və biliklərinə inamla yanaşmaq, bu təcrübələrdən xoş məramlar istiqamətindən yararlanmaq meylini meydana qoyur. İkinci mühüm məqam, fikir plüralizminin önə çəkilməsidir. İlham Əliyevin panellər arasında gedən qızğın müzakirələrin ümumi işin xeyrinə olacağını vurğulaması bu baxımdan səbəbsiz deyil. Çünki böyük ideyalar adətən fikir müxtəlifliyi və müzakirələrin mövcud olduğu şəraitdə hasilə gəlir.

Bütün yönləri ilə birlikdə XII Qlobal Forum Azərbaycan dövlətinin müsbət imecinin güclənməsinə xidmət edən platforma olaraq xalqlar arasındakı nizama və sülhə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi həm bunu mühüm amil olaraq dünyanın gözü önünə sərmək, həm də ona aparan yolun nümunəsini meydana qoymaq baxımından müstəsna qürur və dəyər faktıdır.



MƏTANƏT

## Sonbeşikdən çox sevilir ilk beşiyə qoyulan

**Torpaq anamın ilkidir. Gözünün ilk ovudur. Mənim, sənin, onun böyük bacı-qardaşıdır. Anam onu hamımızdan çox sevir, əzizləyir. Görəsən nə üçün? Axı ana övladları arasında ayrı-seçkilik qoymamalıdır. Elə buna qısqanclıq edib ağlayıb-sızlayanda anam bizlərə deyir:- beş barmağım var, gəl hər birini kəs, gör hansından qan çıxmayacaq? Hələ üstəlik bunu da deyir ki, özün ana olanda görəcəksən ki, övladlar arasında ayrı-seçkilik qoymaq olmur.**

Bəs görəsən nə üçün hər dəfə anamın Torpağı bizdən artıq sevdiyini hiss edirəm. Axı bunu hiss etmək o qədər də çətin deyil. Nə olsun ki, anam bunu etiraf etmir. Mən adım kimi əminəm bu məhəbbətə. Axı hər şey göz qabağındadır. Hər dəfə bir işi görəndə də öz-özünə Torpağı züm-zümə edir anam: "-Canım torpağım, gözüm torpağım, sənsiz elim-günüm olmaz, sənsiz ömrüm-günüm olmaz. Sənsiz Vətənim olmaz, qərib olaram, qan ağlaram, xiffət edərəm, vərəmlərəm. Qara gözlüm, şirin sözlüm..."

Bunları kim öz qulağıyla eşitsə, anamın hamımızdan çox Torpağı sevdiyini zənn etməz? Kədərlənəndə də Torpaq deyib, durur, şirin-şirin acı bayatılar söyləyir. Qəribədir, anasını itirəndə də Torpağı əzizləyirdi; "-Ay qara gözlum, ay sinəsi sərin, ay ulu babalarımın qonaqçısı, ay evi gen, indi də anamımı qonaq apardın?"

Anamın dodaqaltı belə söyləmələrinin dəfələrlə şahidi oluram. Gözlərinin düz içinə baxıram, sanki hər dəfəki sualıma yenə də cavab axtarırmış kimi: "-Bəs deyirdin, Torpaqla sizin aranızda ayrı-seçkilik qoymuram?". Anam bu sualı gözlərimdən oxuyurmuş kimi gözəl gözlərinin nəzərlərini gözlərimizən yayındırır. Yox, anamda bir sirr var. Bu sirr məni için-için yeyir. Bu nə sevdadır, bu nə məhəbbətdir Torpağa qarşı.

Yenə də hər birimiz qısqanclıq içərisindəyik. Torpaq yanımızda olmayanda bu mövzunu bacılarımla-qardaşlarımla çox müzakirə edirik:-Axı anamın Torpağa qarşı bu qədər sevgisi nə deməkdir. Böyük bacım deyir, mən haradasa oxumuşam ki, bir-birini sevən iki gəncin ilk övladı onların sevgilərinin simvoludur, bəlkə buna görədir? Böyük qardaşım deyir, mən eşitmişəm ki, qadını ana edən ilk uşaq həmişə sevimli olur. O biri bacım deyir ki, mən də eşitmişəm ki, uşaq ana-ata arasında körpüdür, bəlkə anam atamla arasındakı körpünü tək Torpaqla görür. Balaca bacım deyir ki, mən sizlərin fikri ilə razı deyiləm, mən sonbeşiyəm, anam məni hamıdan çox sevir. Onun sözünə heç birimiz əhəmiyyət vermirik, könlünü də qırmırıq. O, hələ elə düşünür, amma biz hamımız bu fikirdəyik ki, anamız Torpağı hamımızdan çox sevir.

İllər ötür, böyüyürük. Elə həmin qısqanclıqla, elə həmin tərəddüdlərlə yaşa doluruq. Ana oluruq. Bəli, dərk edirik ki, insan övladları arasında fərq qoya bilməz. Bir iş görəndə biz də züm-zümə edirik, eynilə anamız kimi. Bir sıxıntımız olanda biz də laylalar deyirik, eynilə anamız kimi. Bizim də övladlarımız ilkimizi qısqanır, eynilə biz Torpağı qısqandığımız kimi.

İndi mən anlayıram mənim, sənin, onun qısqanclığının səbəbini. İndi mən anlayıram mənim, sənin, onun anasının Torpaq sevdasını, torpaq sevgisini, torpaq məhəbbətini. Axı mən də anayam. Mənim də ilkim Torpaqdır. Bəli, böyük bacımın dediyi kimi, ilkim mənim məhəbbətimin simvoludur. Böyük qardaşım düz bilirmiş, ailənin ilki ata-ana arasında körpüdür. Tək balaca bacımın söylədiyi fikirlə yenə də razılaşmıram. Çünki sonbeşikdən çox sevilir ilk beşiyə qoyulan. O, da Torpaqdır. Mənim, sənin, onun ilki. İlkimizsiz bir heçik. Elimiz-günümüzdür ilkimiz.

Xoşbəxtliyimiz, xoş günümüzdür ilkimiz. Ata-babalarımıza qoynunda yer verib, onları qoruyan dünənimizdir. Bizi Vətənli-dili uzun, sözü kəsərli edən bu günümüzdür ilkimiz. Qoynunda daimi bir mənzil tikib uyuyacağımız sabahımızdır ilkimiz. Zaman-zaman hər bir ananın övladı qısqanacaq anasının ilkini. O vaxta qədər ki, özü ana olub, ilkini-Torağını dünyaya gətirə. Beləliklə, sonsuzluqlara uzanan bir sevda yaranır-Torpaq sevdası. Bitib-tükənməyən bir sevda.

# Qərbi Azərbaycana qayıdışın yolu görünür

## Zəngəzur dəhlizinin açılması ilə tarixi ədalət bərpa olunacaq



Mövcud reallıq və ortada olan faktlar ondan ibarətdir ki, indiki Ermənistan adlı oyuncaq qurum Azərbaycanın bir hissəsi olub. Ancaq Azərbaycana qarşı tarixi düşmənçilik hissində olan məkrli qüvvələr müxtəlif bəhanələrlə ermənilərin Cənubi Qafqaza köçürülməsinə nail olmuşlar. Sonrakı proseslərdə göstərdikləri hərbi, siyasi, maliyyə dəstəyi ilə ermənilərin güclənməsinə və möhkəmlənməsinə nail olmaqla azərbaycanlıların terror və qətliamlarla sıxışdırılmasını həyata keçirmişlər. Sovetlər dağıldıqdan sonra isə ermənilərin özlərinə dövlət qurmalarına yardımçı olmuşlar. Lakin nə qədər saxtakarlığa və xarici dəstəyin göstərilməsinə baxmayaraq heç bir zaman indiki Ermənistanın tarixi Azərbaycan əraziləri olduğunu tarixi səlnamələrdən silmək mümkün olmayacaq. Nəhayət, elə bir tarixi gün gələcək ki, Qərbi Azərbaycana sahib çıxacağıq və insanlarımız yenidən öz doğma yurdlarına qayıdaraq normal yaşayışlarını bərpa edəcəklər. Nəzərə almaq lazımdır ki, indiki Ermənistanın hər çığırı, daşı, qayası, kənd və şəhərləri Azərbaycan xalqına məxsusdur. Təkcə Zəngəzur mahalında arxeoloji qazıntılar aparılsa, azərbaycanlıların mədəni irsinə aid olan on minlərlə tarixi abidələr, müxtəlif sənətkarlıq əşyaları, musiqi alətləri, qədim döyüş silahları, kənd təsərrüfatı alətləri, mətbəx ləvazimatları aşkarlamaq olar.

Təkcə 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində aparılan siyahıyalınmaya görə bölgədə 396 məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdlarını tərk etdilər. Bu ərazilərdə azərbaycanlılara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində bu barədə demişdir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

### Prezident İlham Əliyev: "Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar"

Arxiv sənədlərini araşdırarkən məlum olur ki, İrəvan və Zəngəzurda mövcud olan qəbiristanlıqlardakı nadir məzar daş nümunələri, tarixi qalalar azərbaycanlılara məxsusdur. Son iki yüz il ərzində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı aktları, vandal əməlləri nəticəsində əksər yaşayış məskənlərində olduğu kimi Zəngəzur və İrəvan quberniyalarında da olmuş azərbaycanlılara məxsus bütün mədəni irs dağıdılmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasının inzibati binasında olarkən belə demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır... Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar."

Bəli, Qərbi Azərbaycana qayıdış günü uzaqda deyil. Əminliklə demək olar ki, Zəngəzur dəhlizinin açılması ilə qayıdışın müəyyən hissəsinin həyata keçirildiyini demək olar. Həm də dəhlizin açılması tarixi ədalətin bərpası olacaq. İyirminci əsrin əvvəllərində ermənilərə hərbi siyasi dəstək göstərən qüvvələr, o cümlədən Rusiya bölgədə azərbaycanlıların kütləvi şəkildə qətlini həyata keçirməklə Zəngəzurun boşaldılmasına və ərazinin Azərbaycandan qopararaq ermənilərə verilməsinə nail oldular. Bununla da Azərbaycanın Qərb rayonları ilə Naxçıvanın quru əlaqələri kəsildi. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində qazanılan Böyük Zəfər nəticəsində imzalanmış 10 noyabr Bəyannaməsinə əsasən Ermənistan rəhbərliyi Zəngəzur dəhlizinin açılmasını qəbul etmişdir. Zəngəzur dəhlizinin açılması ilə nəhayət Naxçıvan Muxtar Respublikası blokadadan çıxmış olacaq və türkdilli ölkələri birləşdirməklə yanaşı, Azərbaycanın strateji əhəmiyyətini də artıracaq. Bu isə türk dövlətlərin güclənməsinə və beynəlxalq aləmdə rolunun daha da artmasına təkan olacaq. Zəngəzur dəhlizinin bərpası Çindən, Hindistandan, Orta Asiyadan Türkiyə və Avropaya məhsullar daşınsın. Bu isə tarixi İpək yolunun bərpası deməkdir. Azərbaycan Prezidenti İlham Əliyev Zəngəzur dəhlizinin bərpa olunmasının əhəmiyyəti ilə bağlı BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyasındakı çıxışında demişdir: "Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə vermişdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm".




### Erməni vəhşiliyi tarixi sənədlərdə

Ermənilərin son 200 ildə Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımları, vandalizm əməlləri barədə müasir dövrün araşdırmaçıları, tarixçiləri dəhşətə gəlirlər. Müxtəlif dövlətlərin hərbi-siyasi dəstəyinə arxalanan ermənilər özlərinə dövlət qurumu yaratmaq iddiası ilə Azərbaycan ərazilərində qətliamlar, soyqırımı aktları həyata keçiriblər. Ümumilikdə 2 əsr ərzində 2 milyondan çox azərbaycanlı qətlə yetirilmiş, yaralanmış, ömürlük şikəst olmuş, ev- eşiyindən didərgin düşmüşdür. 20-ci əsrdə ermənilər dörd dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1989-cu illərdə azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti həyata keçiriblər. Yalnız 1918-ci il martın 30-dan aprelin 5-ə qədər ermənilər Bakı, Şamaxı, Quba, Şəki, İrəvan, Naxçıvan, Lənkəran və digər yaşayış məskənlərin də 450-500 minə yaxın azərbaycanlını qətlə yetiriblər. Rəsmi sənədlərə istinadən qeyd olunur ki, mart soyqırımı nəticəsində Bakıda 20 mindən çox azərbaycanlı amansızlıqla öldürülmüş, 30 minə yaxın insan isə yaralanmışdır. Bununla yanaşı, ermənilər "Kaspi" mətbəəsini, "Açıq söz" qəzetinin redaksiyasını, "İsmailiyyə" binasını yandırmış, "Təzəpir" məscidinin minarələrini top atəşi ilə zədələmişdilər. Daşnak-bolşevik hərbi birləşmələri Bakıdan sonra Qarabağın bölgələrində, həmçinin Şərqi Anadoluda, Cənubi Azərbaycanda da azərbaycanlılara qarşı soyqırımları həyata keçirdilər. Erməni vəhşiliyinin qurbanına çevrilən bölgələrimizdən biri də Şamaxı şəhəri olmuşdur.

Daşnak-bolşevik hərbi birləşmələri tərəfindən Şamaxının 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq Cümə məscidi yandırılmışdı. Erməni quldurları minlərlə dinc insanı qətlə yetirmişdir. Şamaxı qəzasının 53 kəndində ermənilər 12 min azərbaycanlını qətlə yetirmişdilər. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il iyulun 15-də bu faciənin təhqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Komissiya ilkin mərhələdə Şamaxıda törədilən erməni vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bununla torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi.

Sovet bolşeviklərinin Azərbaycanı işğal etmələri və Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Havadarlarının Moskvada möhkəmlənməsindən istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Bu azmış kimi ermənilər müxtəlif vaxtlarda, o cümlədən də 1947-1953-cü illərdə Qərbi Azərbaycandan azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə hər cür vasitə və üsullardan istifadə etdilər. Bütün bunlar sovetlərin mövcud olduğu dövrdə baş verirdi. Sovet rəhbərliyi isə ermənilərin azərbaycanlılara qarşı tarixi vəhşiliklərinə göz yumurdular. Bəzən isə birbaşa və ya dolayısı yollarla ermənilərə yardım edirdilər.

Nəticədə sovetlər dağılan ərəfədə Qarabağda separatizm gücləndi və Azərbaycana qarşı torpaq iddiaları baş qaldırdı. Lakin milli irsinə, dəyərlərinə, torpağına sahib çıxmağı bacaran Azərbaycan xalqı özünün lideri, Ali Baş Komandan, Fateh Sərkərdə, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə ermənilərin işğal etdiyi torpaqları azad etməyə nail oldu. Bu gün artıq erməni işğalından azad edilən və rahat nəfəs alan, yenidən qurulan Qarabağımız var. Elə bir Qarabağımız var ki, Prezident İlham Əliyevin dediyi kimi: "Biz əbədi olaraq Qarabağda yaşayacağıq".

***İLHAM ƏLİYEV***

# USAİD, GİPA və son

***Qərbin dövlətləri idarə etmək istəyi və bunun üçün seçdiyi üsul çox maraqlı, həm də təhlükəli olması ilə seçilir. İndi silahlı işğal dövrü keçib, iqtisadi təsirlər və təhdidlər aktuallaşıb. İri dövlətlərin siyasi hakimiyyətlərinin apardığı siyasət, tətbiq etdiyi iqtisadi çərçivə, digər dövlətləri öz planlarının bir hissəsi etmək cəhdindən əvvəl daha qorxunc silahlar işə salınır. Cəmiyyətləri sözəbaxan, müti, manqurd kütləyə çevirmək sonrakı prosesləri asanlaşdırır, hadisələri sürətləndirir. Xüsusən, Qərbin beyinləri yuma əməliyyatı öncə cəmiyyətləri parçalayır, ikitirəlik yaradır, ictimai şüurlarda dövlət adlı düşmən obrazı formalaşdırır, kütləvi itaətsizlik toxumlarının cücərməsini təmin edir.***




SSRİ adlı proletariat diktaturası dağıdılandan sonra onun yerində yaranan yeni dövlətlərdə ideoloji boşluğu doldurmaq üçün Qərbin təbliğat maşını işə düşdü. Xaosdan, kövrək ictimai mühitdən yararlanaraq cəmiyyətin aktiv kəsimini ələ almağa, onlara müxtəlif şirnikləndirici, aldadıcı vədlər verərək guya öz ölkəsi üçün çalışırmış kimi onları öz tərəflərinə çəkməyi, daha doğrusu özlərinin gələcək agenti kimi formalaşdırmağı bacardılar. QHT, media qurumlarının təsis edilməsi, Cənubi Qafqazın hansı ölkəsi daha çox cəmiyyət institutları yaradır yarışı başlandı. İlk baxışdan burada qəribə, anlaşılmayan heç nə yox idi. Yaradılan yeni qurumlar öz istiqamətləri üzrə cəmiyyətin inkişafını, yeni çağırışlara adekvat cavab vermək qabiliyyətini təmin etməkdə dövlətə yardım etməli idilər. Amma Cənubi Qafqazın hər üç ölkəsində - Ermənistan, Gürcüstan və Azərbaycanda müharibə şəraiti hökm sürdüyünə görə Qərb institutları burada bəzi manеələrlə üzləşməli olurdular. Buna baxmayaraq fərqli taktiki gedişlər məqsədə çatmaq üçün kifayət edirdi.

Əlbəttə, bir ölkədə yüzlərlə QHT və media orqanı yaratmaq işin yalnız bir hissəsi ola bilərdi. Yalnız həmin qurumları əldə saxlamaqla planları gerçəkləşdirmək olardı. Belə də oldu. QHT, media və digər siyasi qurumların maliyyələşməsi Qərb institutlarının işini yüngülləşdirdi. Xaricdən gələn milyonlarla dollar axını özü ilə daha çox xaos, itaətsizlik, milli maraqlardan sapınma, dövlət-xalq birliyində inamsızlıq gətirdi. Bütün bunlar Qərbin bəzi dairələri tərəfindən idarə olunurdu. Yəni Qərb verdiyi maliyyə vəsaitinin müqabilində kimim harada, necə və hansı rolda oynayacağını təyin edirdi. USAİD, Amnesty International, Sərhədsiz Reportyorlar, Human Rights Watch və s. kimi təşkilatların destruktiv fəliyyətləri bəzi ölkələrdə az, digərlərində isə çox nəzərə çarpırdı. Yerli QHT, media və digər cəmiyyət institutları dövlət qurumları ilə nə qədər çox qarşıdurmaya gedirdisə bir o qədər artıq vəsait əldə etmək imkanı qazanırdı. Bir tərəfdən dövlət qurumlarının işi artırdı, digər tərəfdən cəmiyyətdə parçalanma sürətlənirdi.

## USAİD işi...

USAİD formal olaraq müstəqil dövlət agentliyi hesab olunsa da, birbaşa ABŞ prezidenti, dövlət katibi və Milli Təhlükəsizlik Şurasının tabeçiliyində idi. Onun rəhbəri və müavinləri ABŞ Senatının razılığı ilə ABŞ Prezidenti tərəfindən təyin olunurdu. Maliyyə vəsaitinin həcminə görə dünyanın ən öndə gedən təşkilatıdır, desək, yanılmarıq. Rəqəmlərə diqqət edək: təkcə 2024-cü maliyyə ilində USAİD layihələri üçün 36 milyar dollara yaxın vəsait ayrılıb. Son 9 ildə isə ümumilikdə USAİD xətti ilə 335 milyard dollar xərclənib. Bu, az qala orta səviyyəli dövlətin illik büdcəsindən 10 dəfə çoxdur. Dünyanın 100-dən artıq ölkəsində nümayəndəliyi və 10 mindən artıq əməkdaşı olan USAİD guya ehtiyacı olan ölkələrə humanitar yardım, iqtisadiyyat, səhiyyə, təhsilə, demokratiya sahələrinə dəstəklə məşğul olsa da, əslində onun fəaliyyəti bütün dünya üzrə QHT və medianı qanunsuz maliyyələşdirməklə ölkələrin daxili işlərinə qarışmağa, ictimai rəyə təsir imkanları qazanmağa və bu rıçaqlardan təzyiq və hətta dövlət çevrilişləri üçün istifadə etməyə, müstəqil dövlətlərdə qanuni seçilmiş hakimiyyətləri və konstitusion quruluşu devirməyə yönəlib.

USAİD ümumilikdə 700-dən artıq media orqanını, 300-ə yaxın media sahəsində çalışan QHT-ni və 6 mindən çox jurnalisti maliyyələşdirilib. Bu il fevralın 6-dan ABŞ hökuməti bu təşkilat vasitəsilə "The New York Times", "Politico" və "Associated Press"in maliyyələşdirilməsini dayandırıb. Yalnız Ukraynada medianın 90 faizi USAİD tərəfindən maliyyələşdirilirmiş. 2024-cü ildə USAİD Ukraynadakı proqramlarına 6 milyard dollardan artıq vəsait xərcləyib. Bütün bu fitnəkar əməllər "azad mətbuat", "söz azadlığı" adı altında törədilib. Ayrılan pul vəsaitləri ayrı-ayrı şəxslərin maraqları naminə xərclənib, təxribatçı fəaliyyətə sərf olunub.

Azərbaycanda guya "müstəqil mətbuat" təsis edənlərin əsl iç üzü açılanda çoxları təəccüblənib. Bu gün artıq ifşa olunan həmin "media" strukturlarının "feyk" xəbərlər istehsalçısı olduqları üzə çıxıb. Bir müddət əvvəl xəbər verildiyi kimi, USAİD-in ələ aldığı "Turan" agentliyinin yaydığı dezinformasiya səbəbindən Azərbaycan beynəlxalq skandalla üz-üzə qalacaqmış. Əlbəttə, bu, məsuliyyətsizlik, peşə etikasından xəbərsizlik, bir az da dərinə getsək, xalqa, dövlətə xəyanətdir. "Müstəqil media" "Turan"la məhdudlaşmır, "Meydan TV", "Abzaz", "Toplum TV" və s. şər yuvaları da cəmiyyətimizə neqativ mövqe sərgiləməkdədirlər.






## GİPA nədir?

İngiliscə Georgian Institute of Public Affairs (GIPA), azərbaycanca Gürcüstan İctimai İşlər İnstitutu 1994-cü ildə Gürcüstanda yaradılmış özəl universitetdir. Zamanında Qərbi təbliğatı sayəsində Gürcüstanın ən nüfuzlu universitetlərindən biri olub. GIPA-da dərslər əsasən ingilis dilində aparılıb. Təhsilin hansı dildə olması fakültəyə və tələbənin seçiminə görə dəyişib. Xüsusilə diqqət çəkən məqamlardan biri budur ki, GIPA-da çalışan müəllimlər əsasən gürcülər, bəzən də amerikadan olan professorlar olub. Gürcü müəllimlərin hamısı Avropa və Amerikada yaxşı universitetlərdə təhsil alıblar. GIPA-da təhsilin Azərbaycandakı universitetlərdən fərqi, tələbələrə verilən avadanlıq və imkanlar da başqa olub.

Gürcüstanın İctimai İşlər İnstitutu (GİPA) 2001-ci ildən etibarən jurnalistika üzrə magistr proqramı təklif edib. Bu proqram ABŞ-ın Dövlət Departamenti və Açıq Cəmiyyət İnstitutunun dəstəyi ilə maliyyələşdirilib. Proqramın məqsədi Qafqaz regionunda medianın guya inkişafını dəstəkləmək və demokratik cəmiyyəti gücləndirmək idi. Lakin, USAİD-in fəaliyyətinin dayandırılmasından sonra 2025-ci ilin mart ayında məlum oldu ki, GİPA-nın jurnalistika üzrə magistr proqramı rəsmi olaraq dayandırılıb. Belə ki, proqram artıq təqaüdlə tələbə qəbulu həyata keçirməyəcək və hazırkı tələbələr öz hesablarına təhsil almalı olacaqlar.

Sual olunur, bəs əsl niyyət nə olub ki, Cənubi Qafqaz ölkələrində QHT, media və digər cəmiyyət institutları maliyyələşdirilib, milyonlar xərcləni? Qərb dünyasına xas olmayan bədxərclik burada bütün sədləri aşıb. Gürcüstanın İctimai İşlər İnstitutu (GIPA) 1994-cü ildə yaradılıb. Onun yaradılmasının əsas məqsədi Gürcüstanda və daha geniş Qafqaz regionunda dövlət idarəçiliyi, media və hüquq sahələrində peşəkar kadrların hazırlanması olub. GİPA-nın yaradılmasına ABŞ və Avropa institutları, xüsusilə USAID və Açıq Cəmiyyət Fondu dəstək verib.

## Əslində isə...

Bir vaxtlar Avropa İttifaqının ayrı-ayrı institutlarının nümayəndələri Cənubi Qafqazda qeyri-hökumət təşkilatlarının sayına görə Gürcüstanı qalan ölkələrə örnək kimi göstərirdilər. Gürcüstan cəmiyyəti də bundan qürrələnən kimi görünürdü. Amma daxili sabitliyin qorunmasında maraqlı olan hakimiyyətlər isə kənar müdaxilələrin ağır fəsadlar verə biləcəyini nəzərə alıb buna ehtiyatla yanaşırdılar. Və təxminlərində heç də yanılmayıblar. QHT bolluğundan fəxr duyan Gürcüstanda baş verən xaosun başında Qərbin maliyyəsindən asılı olan QHT-lərin olduğunu Tbilisi anlamaqdadır. Gürcüstan parlamentinin binası qarşısında "Xarici agentlər haqqında" qanun layihəsinə qarşı növbəti aksiya keçiriləndə sirlər çözülməyə başladı. Parlamentdə layihənin müzakirəsi getdiyi vaxtda bir anlıq ara qarışdı. 2024-cü il aprelin 29-da parlamentin hüquq komitəsi tərəfindən layihə bəyənilsə də bu bəzi "avropalıları" qəflət yuxusundan oyadıb. Deputatlar qanun layihəsinə sona qədər baxmağa vaxt tapmayıblar və prosedurun mayın 1-də davam etdirilməsinə qərar veriblər. Etirazçılar isə oturaq aksiya keçirərək binanın girişini bağlamağa çalışsalar da, polis əvvəlcə onları oradan uzaqlaşdırmağa çalışıb, etirazçılar direniş göstərincə güc tətbiq edilib. Tezliklə həbslər başlayıb. Hətta həbslər polislə toqquşmaya çevrilib. Mitinqə müxalifət deputatları da qoşulub. "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi "Gürcü arzusu" partiyası tərəfindən 2023-cü ilin martında Gürcüstan parlamentinə təqdim edilib. Lakin etirazlara görə qanun layihəsi geri götürülüb. Layihə yenidən baxılmaq üçün təqdim edilib. Qanun layihəsinə əsasən, xaricdən 20%-dən çox maliyyələşən istənilən təşkilat hər il öz mənbələri və vəsaitdən məqsədli istifadəni göstərən gəlir bəyannaməsi təqdim etməlidir. Qanun layihəsinə qarşı çıxanlar bunun Rusiyanın xarici agentlər qanununa bənzədiyini iddia edirlər.

## Qayıdaq GİPA-ya

1994-cü ildə təsis olunub, dövlət idarəçiliyi və ictimai siyasət sahəsində təhsil verməyə başlayıb. Məqsədi Gürcüstanın dövlət idarəçiliyində islahatları dəstəkləmək olsa da 2001-ci ildə "Jurnalistika və media məktəbi"ni yaratmaqla Qafqaz regionunda media sahəsində kadr hazırlayan aparıcı institutlardan birinə çevrilib. ABŞ Dövlət Departamenti və Açıq Cəmiyyət Fondu tərəfindən maliyyələşdirilən proqramlara başlayıb. 2010-cu illər Beynəlxalq əlaqələrin genişləndirilməsi fakurltəsi yaradılandan sonra Avropa və ABŞ universitetləri ilə əməkdaşlıq etməyə başlayıb. 2025-ci ildə isə media proqramı bağlanıb.

Proqramda Azərbaycan və Ermənistandan olan tələbələr ABŞ Dövlət Departamentinin maliyyələşdirdiyi təqaüdlə təhsil ala bilirdi.Tələbələrin seçimləri bu ölkələrdəki ABŞ səfirlikləri vasitəsilə aparılırdı. Media şəbəkəsinin yaradılması və idarə edilməsi mexanizmləri təqribən belə qurulub. Əvvəlcə 1000-3000 dollar məbləğində olan kiçik qrant proqramları ilə ölkədəki bütün narazı jurnalistlər, jurnalist təşkilatları maliyyələşdirilir, sonra narazı jurnalistlər, jurnalist təşkilatları və KİV-lər arasından "prinsipiallar", yeni radikal olanları seçilib müəyyənləşdirilir, "peşəkar jurnalist təhsili almaq üçün", əslində isə təlimatlandırılmaq və daha da radikallaşdırılmaq üçün 1 illik xüsusi kurslara göndərilirdilər. 2000-ci illərin əvvəllərində hər il bu məqsədlə standart olaraq 4 nəfər, 2011-ci ildən sonra isə 6 nəfər jurnalist GİPA)-ya"kursa" göndərilirdi. Tələbələrin "seçilib müəyyənləşməsində" "Soros Fondu"nun təqdimatı vacib idi. Həmçinin, təhsil dövründə həmin tələbələr üçün "Soros Fondu"nun ayrıca qayğısı var idi.

Təhsillərini başa vurub geri dönən tələbələr üçün üçüncü mərhələ başlayırdı. Bu şəxslər üçün yeni jurnalist təşkilatları, KİV qurumları yaradılır, təmsil olunduqları təşkilatlar isə möhkəmləndirilirdi. Bu məqsədlə "keçmiş tələbələrin" yaratdıları təşkilat və KİV-lər üçün orta və iri qrantlarla -10 min dollar və daha yuxarı məbləğlə təmin edilirdi. Orta və iri qrantlarla təmin edilmiş, öz aralarında şəbəkələşdirilmiş təşkilat və KİV-lər lazımi anda lazımi bəyanatları səsləndirilmək üçün istiqamətləndirilirdilər. Həmin şəbəkə üzvləri anti-Azərbaycan və qanundankənar fəaliyyətlərinə görə təzyiqlə üzləşsələr, xəsarət alsalar, peşə fəaliyyətlərində fasilə yaranardısa, bu mərhələdə də xüsusi yardımla təmin edilirdilər.

GİPA-nın əsas məqsədi cəmiyyətləri öz layihəsi əsasında formalaşdırmaq olub və buna müəyyən dövrə qədər nail olmağı bacarıb. Amma dövran dəyişib, zaman onu tərtib edənlərin xeyirinə işləməyib. Cəmiyyət institutlarının müəllifi olan ABŞ dövlətin yeni başçısının dünyadan gələn çağırışlara adekvat reaksiyası bu təşkilatların sonunu gətirib.

***V.VƏLİYEV***

# Allah ürəyimizə görə versə, nə olar?

***Bu dünyaya gəldiyimiz gündən ətrafımızda yaxşı insanlar da var, pis insanlar da. Planetimizə ona görə maddi deyilir ki, burada ideal və əbədi heç nə yoxdur. Ruhi dünyadan fərqlənən maddi kainat həm bədxasiyyətli, xəbis, həm də xoşxasiyyətli, gülərüz insanların evidir. Bir az obrazlı desək, yaxşı ilə pisin, xeyirlə şərin, müsbətlə mənfinin yanaşı yaşadığı və mübarizə içində olduğu bir yerdəyik. Kimimiz alqış etməyi sevsək də, aramızda elələri də var ki, ətrafındakılara daim qarğış və mənfi enerji yönləndirir.***



Tanrının yaradılışı sözlə var etdiyi bütün dinlərdə qeyd olunur. Xüsusilə də, Avesta, Baqavad-Qita kimi müqəddəs kitablarda sözün özündə qüdrətli enerji daşıdığı haqda elmi təcrübələrlə uyğunlaşan dəyərli fikirlər var. İncildə, Quranda, Tövratda da bu haqda işarələrə rast gəlinir. Son vaxtlar Avropa və Yaponiya alimlərinin apardığı elmi təcrübələr bu aşkar gerçəyi fakt olaraq ortaya çıxardı. Su üzərində aparılan təcrübələrdən yəqin ki, çoxlarının məlumatı var. Təcrübə zamanı suyun yanında öncə xoş sözlər, sonra isə pis





sözlər söylənir. Birinci halda suyun tərkibi molekulyar olaraq dəyişir və təmizlənir, ikinci halda isə həmin suyun tərkibi yenidən dəyişir və çirklənir. Sözdən təsirlənib açılan-solan çiçəklər də var.

## Adi sözlərdə hansı sirlər gizlənir?

Yəqin ki, ailə böyüklərinizdən çox alqış eşitmisiniz: "səni min yaşa", "səni görüm min budaq ol" , "üzün hər iki cahanda ağ olsun" kimi sözlər nənələrimizin, babalarımız ən çox işlətdikləri alqışdır. Nənəmdən belə sözləri çox eşidirdik. Nənəm həm də deyirdi ki, əgər bir adam sidq-ürəklə deyilmiş alqış alarsa, o Tanrının ən çox sevdiklərindən olur.

Çoxlarımız müxtəlif səbəblərdən qarğışlar da eşitmişik. Bu qarğışlarda da mənfi enerji toplanıb və hətta bəzən onların həyata keçdiyi hallara da rast gəlinir. Qədim dinifəlsəfi biliklərə görə, bu qarğışın haqlı və ya haqsız olmasından, onu edənin və onun ünvanlandığı subyektin daxili ruhi səviyyəsindən asılıdır. Edilən alqış və qarğışlar həm edənin özünə, həm də sözlərini yönəltdiyi insana olduqca böyük təsir edir. Alqış və ya qarğış kəlmələrindən istifadə edəndə öncə insanın öz energetik kanalları zərər görür. Neqativ enerji həm insanın daxilinə, həm də xaricinə təsir edir.

Hissləri ifadə etmək üçün istifadə etdiyimiz ən adi bir söz də bizim emosiyalarımızı və duyğularımızı ifadə edir. Çoxlarımız milli adət-ənənədən və mentalitetdən qaynaqlanan psixologiyamıza görə şər işlərdən və qarğışlardan uzaq dursaq da bəzimiz də hirsini soyutmaq, çarəsizlik və ya digər səbəbdən qarğış edir. Beləliklə, sözlərdə mənfi ya da müsbət hansısa gizli enerjinin gizləndiyi ortaya çıxır. Minillərdən süzülüb gələn folklorumuz da əsasən bunların üzərində qurulub.

## Alqışlar - milli dualar

Tanrının insanlara göndərdiyi müqəddəs kitablarda qarğış və alqış barədə məlumat verilib. Bütün peyğəmbərlər məsləhət görür ki, dili duaya, alqışlara, mehribançılıq, sülh ifadə edən kəlmələrə alışdırmaq lazımdır. "Heç vaxt neyləyim, necə eləyim deməyəsən", "Ağ günlü, ağ əppəkli olasan", "Allah balanı sənə çox görməsin", "Evin abadan olsun", "Balan bar gətirsin", "Ürəyinə xal düşməsin" kimi milli dualarımız da bu nəsihətlərdən doğulub.

Sözdə böyük enerji var. İnsanda olan mənfi və ya müsbət enerji də bu sözlə çarpazlaşdıqda yaranan enerji olduqca böyük təsir qüvvəsinə malikdir. İndiki elmin ağ və ya qara magiya adlandırdığı elm də əsasən sözün qüdrəti ilə var olur. Dünyada ən zəngin folklara malik olan Azərbaycan xalqının yazılı və şifahi ədəbiyyatında alqışlar daha çox yer tutur. Bu da xalqımızın sülsevər, mehriban və xeyirxah təbiətə sahib olduğunu ortaya qoyan faktlardandır. Ümumiyyətlə, sözlərin, səsin vibrasiyası ətrafda energetik sahə yaradır ki, bu da bir enerji qəbuledici rolu oynayan insana təsirini göstərir. Bəzən elə mühitə düşürük ki, orada daha çox qalmaq, o insanlarla ünsiyyətdən, söhbətdən rahatlıq tapırıq. Demək, bu zaman onlardan müsbət enerji yayılır və biz də onu qəbul edirik.

## Qarğışlara dinlərin münasibəti necədir?

Valideynlər, xüsusilə də analar, hisslərinə hakim olmaqda çətinlik çəkdikləri zamanlar bəzən uşaqları üçün özləri də istəmədən qarğış edirlər. Çox təəssüf ki, dövrümüzdə qarğış insanın özünü rahatlaşdırmaq üçün söylədiyi adi söz halını alıb. "Boyuna ip ölçüm", "Üzünü mürdəşir yusun", "Yolun gedər-gəlməzə düşsün", "Ətin tökülsün", "Allah sənə qotur versin, dırnaq verməsin", "Adın daşlara yazılsın", "Südüm sənə qənim olsun", "Qanın daşlara dağılsın" və s. kimi qarğışlar əslində xəncər qədər kəsərlidir, fərqində deyilik.

Qarğış lənətdir, onu edən də, qarğış edilən də bu ağırlıq altında əzilir. Qarğış var ki, anında təsirini göstərir, qarğış var ki, uzun illərdən sonra təsir edir. Bütün dinlərdə qarğışlardan istifadə məsləhət görülmür. Dini inanclarda sutkanın müəyyən vaxtları var ki, həmin saatlar dua vaxtı adlandırılır. Din xadimləri hesab edir ki, dil vərdişi ilə deyilən qarğışlar, dua vaxtına rast gələrsə qəbul olur. Valideynlərin əsəbi anında etdiyi bir qarğış uşağına olduqca pis təsir edə bilər. İslam dinində də qarğış etmək qəbahət sayılıb. Məhəmməd peyğəmbər "özünüzə, uşaqlarınıza, mallarınıza da qarğış etməyin. Qarğışınız diləklərin qəbul edildiyi zamana tuş gələr və Allah qarğışınızı qəbul edər" deyə öyüd verərmiş.

## "Avesta"da ata qarğışı barədə yazılanlar

Yaşlı nəslin nümayəndələri deyir ki, ananın övladına etdiyi qarğış tutmur, çünki nəhs sözlərinin qarşısını ana ilə balanın arasında olan görünməz bağ tutur. O bağ nədir, bilirsinizmi? Ana südü. Ana südü ana ilə balanın arasında mistik bağ yaradır və bu əlaqə balanı bütün nəhs sözlərdən və qarğışlardan qoruyur. Yəni, ana südü bizim fiziki sağlamlığımız üçün nə qədər vacibdirsə, ruhi-astral bədənimiz üçün də bir o qədər əhəmiyyətlidir. İddia edilir ki, ən təhlükəli və adamı tez tutan qarğış ata qarğışıdır. Hətta belə qarğışlar ölümlə də nəticələnə bilir. Bəşəriyyətin ilk müqəddəs kitabı olan "Avesta"da da bu barədə yazılıb. Kitabda tez-tez "Ulu Tanrı, Sən bizi ata qarğışına tuş eləmə!" söylənilir.

Dini və ruhi biliklərə görə insanın ruhu ataya, fiziki bədəni - canı isə anaya tabedir, əgər ana qarğış edirsə, zərbə yalnız bədənə dəyir. İllər öncə tanınmış astroloq Səbuhi Rəhimli ilə söhbətimizdə belə bir fikir söyləmişdu: "Ana qarğışı nəticəsində yol qəzası, sınıq-çıxıq, yanmaq və digər xəsarətlər baş verə bilər. Ata qarğışı isə birbaşa ruha zərər yetirir. Bunun da nəticəsi çox vaxt iki sonluqla bitir: qarğışa tuş gələn adam ya ölür, ya da havalanır (dəli olur). Yəqin elə bu səbəbdəndir ki, övlad xəsarət alanda, dara düşəndə ananın, öləndə isə atanın ürəyinə damır".

## Qarğışın iki başı var?

Ehtimal ki siz də eşitmisininz bu sözü, böyüklər adətən qarğış etməyin həm edənə, həm də edilənə zərər verdiyini deyir. Buna görə də qarğışı da alqış kimi edirlər. Necə? Maraqlı bir alqış var bizdə, əslində bu həm alqışdır, həm də qarğış. "Allah ürəyinə görə versin" diləyi ən çox alqış kimi istifadə edilsə də qarğış edəndə bu diləkdən istifadə edən olur. Təbiidir, pis insana "Allah ürəyinə görə versin" demək ən böyük qarğışdır, eləcə də təmiz, saf insana alqış edəndə bu ifadəni işlədiriksə ona ən yaxşı duanı etmiş oluruq.

Qarğışın ikibaşlı olması isə onu edənin kimliyindən asılıdır. Yaşlı nəslin iddialarına görə əgər qarğış edən özü mənfi enerjiyə malik insandırsa qarğışın bir tərəfi ona da toxunur, çünki o, mənfi enerji ilə zəngin olduğu üçün neqativ enerjiləri maqnit kimi özünə çəkir. Əgər həmişə alqış edən biri təsadüfən qarğış edirsə qarğışı qarşı tərəf üçün gerçəkləşir və özünə bir zərəri olmur. Çünki o pozotiv insandır, ətrafında müsbət enerjilərdən çəpər çəkilib, qarğış və mənfi enerji ona yaxın düşə bilmir.

Qarğış insana arxadan tuş gəlir, bu insanın astral bədəninin kürəyindən açıq olması ilə yozulur. Astral bədən bizim ruhi sahəmizdir və ona daxil olan qarğış ruhumuzu yaralayır. Qarğış edənin gözlərinə baxanda ən neqativ sözlər belə effektini itirir. Həmçinin nənələrimizin istifadə etdiyi bəzi sözlər var ki, o da qarğışın istiqamətini dəyişə bilir: "Ağzından çıxıb qoynuna dolsun", "ağzından qara yellər aparsın", "öz başını yesin" kimi ifadələr zamanın sınağından boşuna keçməyib yəni.

## Alqış et, alqış al - ruhun sağlam olsun

Qarğışdan qorunmağı bildiyimiz kimi, alqış almağın yollarını da öyrənməliyik. Milli dualar olan alqışlar uğurdur, bərəkətdir, sevgidir. Sidq-ürəkdən deyilmiş alqışlar sizə yönləndirilmiş müsbət enerji deməkdir və bu da bir növ qalxan, qoruyucu rolunu oynayır. Ruhun xəstələnməməsi bədənin sağlamlığı deməkdir, həm ruhun, həm bədənin sağlamlığı üçün də müsbət nerji mühimdir.

Ahıl insanlar deyir ki, uşaqların və qocaların duası tez gerçəkləşir. Ona görə də onlardan alqış-dua almaq böyük uğurdur. Təsadüfi deyil ki, uzaq yola çıxanlar, yeni işə başlayanlar böyüklərin xeyir-duasını və alqışını almaq istəyir. "Kitabi Dədə Qorqud" dastanından bilirik, oğuz igidləri döyüşə çıxanda Dədə Qorqudun alqışlarını alıb sonra meydana çıxarlarmış. El ağsaqqalının sözü, duası, alqışı oğuz igidlərini hər bəladan qurtarardı.

Gününüzü alqışla açın, alqışla bağlayın. Qarğış dilinizə yad olsun, nə qarğımayın, nə də tuş gəlməyin. Həmçinin, heç vaxt imkan verməyin ki, kimsə sizin evinizdə, yanınızda qarğısın. Qarğışın mistikasını bilən, nə faciələrə yol açacağını anlayan insanlar adətən öz evində yox, başqasının evində edirlər. Buna icazə verməyin, qarğışın çıxdığı ünvan olmayın.

***Lalə Mehralı***



FELYETON

# Onlayn bayramlaşma

-Süleyman, qabaqdan bayram gəlir. Düz on gün evdəyik. Nə edəcəksən? Planın nədir?

-Ə nə edəcəyəm ki? Gör nə vaxtdı bilet almışam. Gedəcəm Türkiyəyə.

- Mən də dedim bəs rayona gedəcəksən. İşin-gücün qurtarıb ey, ilin-günün bu vədəsində Türkiyədə nə edəcəksən ki? Qoy bir yaz gəlsin, yay gəlsin də.

-Deyirəm, Səxavət, heç elə bil bu dünyanın adamı deyilsən ey. Ə, Allah versin elə bu vaxta. Hava sərin, gözəl. Nə edəcəyəm ki, gəzib-dolaşıb gələcəyəm.

- Ailə-uşaqla gedirsən, yoxsa?..

-Yox əşi, tək gedirəm, oturublar da evdə. İş-gücləriylə məşğul olsunlar.

-Mən dedim bəs rayona gedərsiniz, birlikdə.

-Ə, başın xarab olub, bu qara yazda rayonda nə var. Meyvəsi yox, tərəvəzi yox. Rayonunku yaydı. Göndər uşaqları, gedib üç ay tətili otursunlar rayonda, istirahət eləsinlər. Özün də aradabir get-gəl, günün keçsin. Bəs heç soruşmuram, sən hara gedəcəksən?

-İstəyirəm gedim rayona, atam-anam təkdilər, uşaqları da aparam, Novruzu da birlikdə qarşılayaq, bayramlarını da təbrik edək, gələk.

-Vallah, işin-gücün qurtarıb sənin. Ə, indi nə tək qalmaq, elə camaat tək qalmaq, yaşamaq istəyir də. Mənimkilər də təkdir evdə. Keçən il də bayramda getməmişdik rayona. Açdıq kompüteri, toplaşdıq başına. Görüntülü danışdıq, görüşdük, bayramlaşdıq. Allah bu telefon çıxaranın balasını saxlasın. Qalırdıq bu yollarda. Ay nə bilim, bu gün yeni ildi, sabah, Qurbandı, o biri gün Ramazandı, Novruzdu. Ta o biri gün dədəmin ad günüdü, o biri gün anamın yubileyidi. Dur, saatlarla yol get, çat rayona, yorğun-arğın, heç bilmirdin yediyin nədir, içdiyin nədir, istirahətin nədir. Bir-iki gün firlan oralarda, sonra da eyni yorğunluqla bu qədər yolu qayıt geri. Ə, heyif deyil indiki zəmanə. Bayramdı, telefonu açırsan, əziz ata, əziz ana, bayramınız mübarək olsun. Öpürük sizi, bağrımıza basırıq. Uşaqlar bir tərəfdən, arvad bir tərəfdən danışdı, qurtardı, getdi. O gün də dədəmin ad günüydü, zəng vurduq, hamımız danışdıq. Təbrik etdik. Kişinin ürəyi dağa döndü. Vallah, ona görə həmişə deyirəm ki, bu telefon, internet çıxaranın Allah atasına rəhmət eləsin. Bizi qəribə qayğılardan qurtarıb ə, bu telefon.

- Nə deyim, ay Süleyman. Mən getməsəm, ürəyim rahat olmur ey.

-Səxavət, sən Allah, boş ver, indi ta əvvəlki illər deyil ey. Müasir dövrdü. Kimdi gündə bir bayramdan, ad günündən yana rayona gedən. Hamı bayramları da, ad günlərini də telefonla təbrik edir, qurtarıb gedir. Vallah, biz yeddi bacı-qardaşıq, elə beşimiz burda yaşayırıq. Hamımız da belə edirik. Ordakılar gedirlər də, yanlarında olurlar. Ay qardaş, dünya müasirləşib ey, gərək ayaqlaşa biləsən. Görünür sən hələ bu müasirliklə ayaqlaşa bilmirsən. Ağlın olsun, dəqiqədə bir rayonda nə var ki? Ağlını başına yığ, sən də mənim kimi elə. Bir gün gəlib deyərsən ki, Süleyman, Allah ölənlərinə rəhmət eləsin, mən də dediyin kimi elədim, ə, bu nə yaxşı şey imiş. Əziyyətsiz-filansız.

-Süleyman, beş günlük dünyadır, bir də görəcəksən ömürləri başa çatdı, dünyalarını dəyişdilər. Adam istəyir ki, bir yerdə tez-tez olsun.

-Ay qardaş, telefonla danışanda da bir yerdə olursan da. Bir şey ki, üz-üzə dayanmısan, danışırsan. Yanı bunun fəqri var?

***

Səxavət ta bundan sonra danışmır. Süleyman da hərdənbir onun üzünə baxır, "niyə dinmirsən, ə",- deyir. Lakin Səxavət cavab vermir, sadəcə gülümsəyir. Aradan bir az keçir. Süleymanın telefonuna zəng gəlir. Məlum olur ki, bacısıdır, rayondan zəng vurub ki, bəs yoldaşımın əmisi rəhmətə gedib. Süleyman da deyir ki, qayınatan olsaydı, sənin xətrinə gələrdim. İndi yoldaşına zəng vurub başsağlığı verərəm.

***

Süleyman əvvəlcə bacısının yoldaşına, sonra rəhmətliyin oğluna zəng edir, başsağlığı verir. Dil-ağız edir: özünüz bilirsiniz də, vallah, iş-gücdən adam baş aça bilmir ki. Bir saat vaxt tapmaq olmur.

***

Bu arada Səxavət yenə gülümsəyir.

Süleyman:

-Nəyə gülürsən, mən ölüm.

-Sənə gülürəm, ay Süleyman, nəyə güləcəyəm? Ə qardaş, sən ta hər şeyi onlayn eləmisən ki?..

***Mətanət Məmmədova***



Elçin Bayramlı

# 1 insana qarşı mənəvi terrorun 1000 manatlıq cəzası

***Son vaxtlar cəmiyyətdə əxlaqi cinayətlər, mənəviyyata təcavüz halları getdikcə artır. Bu isə, bir çox hallarda ağır cinayətlərə qədər gətirib çıxarır. Bir neçə gün əvvəl növbəti rəzalət haqda mediada məlumatlar dərc olundu. Bu fakt sosial şəbəkədə başqa şəxsə qarşı əxlaqsızlıq və ləkələmə əməli ilə bağlıdır. Belə ki, cinayətin "qəhrəman"ı 24 yaşlı qızın tiktok proflinə daxil olaraq onun şəkillərini, videolarını ələ keçirib. Daha sonra tiktokda qızın adına səhifə açaraq şəkilləri və videoları orada paylaşıb. Hər paylaşımın da üzərinə "fahişəyəm, pul qarşılığında görüşürəm" yazıb. Səhifə qısa zamanda böyük baxış sayı yığıb. Beləliklə gənc qızın həyatı darmadağın olub. Xanımı işdən çıxarıblar, nişanı isə qaytarılıb.***

Çarəsiz qalan qız özü bu "qəhrəmanın" axtarışına çıxıb. Əvvəlcə öz proflindən adına açılmış fake səhifəyə yazıb ki, mənim şəkillərimi ordan silməsən, səni tapacam. Cavab bu olub: "Məzələnmə". Daha sonra qız oğlan adı ilə saxta profil açıb, səhifənin müsaj bölməsinə yazaraq görüşmək istədiyini deyib. Cavab yazıblar ki, 500 manat qarşılığında görüş baş tuta bilər.

Qız razılığını bildirərək kart istəyib. İlkin ödəniş kimi karta 100 manat göndərib. Səhifədən mesaj gəlib ki, vəsait kart hesabına köçməyib. Qız da kartın təbiqdə olan "skrin"ini istəyib. Hiyləgər, amma o qədər də savadsız "qəhrəman" təbiqin "skrin"ini göndərib. Qız da "skrin"dəki ad və soyadı götürərək polisə müraciət edib.

Nəticədə, polis 2002 təvəllüdlü şəhər sakinini saxlayıb. Saxlanılan şəxs müharibə veteranı olduğunu, yanacaqdoldurma məntəqəsində kassir işlədiyini deyib, hərəkəti isə tamah məqsədi ilə törətdiyini etiraf edib. Cinayətkar 1000 manat məbləğində cərimələnərək sərbəst buraxılıb.

Bu və buna ioxşar hadisələr son vaxtlar tez-tez baş verir. Təbii ki, bu cəzaların həddən artıq yüngül olmasına və sosial şəbəkədə saxtakarlığın üzə çıxmayacağına inamdan irəli gəlir.

Bu kimi hadisələrn kökündə isə mənəvi deqradasiya dayanır. Təəssüf ki, tərbiyə almamış, heç bir mənəvi dəyərə malik olmayan, tamamilə əxlaqsızlıq girdabına yuvarlanan gənclərin sayı artır. Buna görə də, normal və sağlam insanlar ehtiyatlı olmalıdırlar.

Eyni zamanda da, vətəndaşların maddi vəsaitlərin talanması kimi hadisələr də tez-tez baş verir. Belə, hallar baş verəndə cəzalar çox ağır olmalıdır. Çox təəssüf ki, yuxarıda misal gətirdiyimiz halda cinayətkar adekvat olmayan çox yüngül bir cəza-1000 manat cərimə ödəməklə sərbəst buraxılıb. Əslində isə belələri çox ciddi cəzalandırılmalıdır. Çünki bir insanın həyatını məhv edib, şərəfini, ləyaqətini ləkələyib, ona mümkün olan ən ağır mənəvi zərbəni vurub. Bu, konkret olaraq əxlaq, namus cinayətidir. Ona görə də burada cəzalar sərtləşdirilməlidir. Belə şəxslərə güzəşt olunmamalıdır ki, başqalarına da dərs olsun.

Belə hallar ictimailəşəndə, məlum olanda dərhal reaksiya verilməlidir və hüquq mühafizə orqanları belə məsələlərə nəzarət etməlidirlər. Çox ciddi cəzalar verilməlidir. Əgər belə olmasa, bu sahədə anarxiya davam edəcək. Sosial şəbəkələrdə bu və bunun kimi çox sayda biabırçı hallar çoxalacaq. Əgər belələri yetkinlik yaşına çatmayandırsa, mütləq şəkildə valideynləri ağır cəzalandırılmalıdır. Hər bir valideyn zəhmət çəkib uşağına tərbiyə verməlidir. Buna məcburdur, buna məhkumdur. Cəmiyyətə zərər vuracaq məxluqlar yetişdirmək ixtiyarı yoxdur. Ona görə də bu hallarda valideyn cəzalandırılmalıdır.

Belə halların qarşısı elə bir kəskin formada alınmalıdır ki, başqaları buna cəsarət etməsin. Bunun üçün də ilk növbədə nəzarət olmalıdır. Hazırda internet məkanı sosial şəbəkələrdə tam anarxiyadır, nəzarətsiz bir sistemdir. Burada çıxarılmayan oyun qalmayıb. Belə hadisələr törədən, vətəndaşlara zərər vuran, aldadan mənəvi, əxlaqi terror edən şəxslər çox ağır cəzalandırılmalıdır. Yəni indiki cəzalar adekvat deyil. Demək olar ki, cəzasızlıq mühitidir. Ona görə də çox rahat vəziyyətdən çıxırlar.

# "Zəngəzur dəhlizi Azərbaycanın qarşıya qoyduğu əsas hədəflərdən biridir"

"Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanması prosesində əsas məqamlardan biri də Zəngəzur dəhlizinin reallaşdırılmasıdır". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib.O bildirib ki, bu dəhlizin, layihənin müəllifi Azərbaycandır: "Azərbaycanın Zəngəzur dəhlizinin reallaşdırılması ilə bağlı qətiyyətli və birmənalı mövqeyi daim ortada olub. Azərbaycan dövləti üçün bu, qırmızı xətdir. Azərbaycanın əsas hissəsi ilə digər ayrılmaz hissəsi olan Naxçıvanı maneəsiz birləşdirəcək bu dəhlizin açılması qarşıya qoyulan ən böyük vəzifələrdən biridir. Azərbaycan dövləti nəyin bahasına olursa-olsun Zəngəzur dəhlizinin açılmasına nail olacaqdır. Buna heç kimin şübhəsi olmamalıdır.Amma təəssüf ki, son dövrlərdə aparılan danışıqlar zamanı Ermənistan həmişə olduğu kimi bu istiqamətdə də qeyri-konstruktiv mövqe ortaya qoyur. Zəngəzur dəhlizinin açılması məsələsini ləngidir.

Ermənistan qarşısında Azərbaycan bir çox haqlı tələblər qoyub və bu tələblər yerinə yetirilməyincə uzun müddətli, ədalətli və dayanıqlı sülh müqaviləsinin imzalanmasından söhbət gedə bilməz.Bu gün Azərbaycanın irəli sürdüyü bir çox tələblər artıq Ermənistan tərəfindən qəbul edilib. Amma bəzi mübahisəli məqamlar yenə də qalmaqdadır. Bunun da əsas səbəbi Ermənistanın Azərbaycana qarşı konstitusiyada ərazi iddiaları ilə çıxış etməsidir. İlk növbədə Ermənistan öz konstitusiyasına düzəlişlər etməlidir. Bundan sonra biz dayanıqlı sülhdən danışa bilərik.Əgər bu olmayacaqsa, Cənubi Qafqazda təhlükə daim qalacaqdır. Bu da ilk növbədə Ermənistanın özü üçün çox ciddi təhlükələr yarada bilər"."Zəngəzur dəhlizi Azərbaycanın qarşıya qoyduğu əsas hədəflərdən biridir. Tam əminliklə deyə bilərik ki, Zəngəzur dəhlizi tezliklə reallaşdırılacaq. Bu dəhlizin siyasi çəkisi ilə yanaşı iqtisadi əhəmiyyəti də çox böyükdür. Çünki təkcə Azərbaycan yox, Zəngəzur dəhlizindən bir çox bölgə ölkələri, Ermənistanın özü də çox ciddi iqtisadi qazanc, gəlir və divident əldə edəcəkdir. Ona görə də, hesab edirəm ki, Zəngəzur dəhlizi layihəsi reallaşdırılmalıdır. Bölgədə bununla da ciddi təhlükəsizlik və sülhün təməli qoyulmalıdır" - deyə o, əlavə edib.




***Söylü Ağazadə***

# Yaradılış bayramının elmi, mədəni, mənəvi mahiyyəti

## Novruz bayramı insanlığın, sülhün, humanizmin, mənəviyyatın- bir sözlə yaradılışın bütün dəyərlərinin ən qədim və ən möhtəşəm şah əsəridir

**Novruz bayramı tarixdə ilk dəfə olaraq Azərbaycanda rəsmi dövlət bayramı elan edilib- 1921-ci ildə Nəriman Nərimanov tərəfindən**

Azərbaycan xalqının dünya mədəniyyətinə verdiyi misilsiz töhfələrdən olan Novruz bayramının ən yüksək səviyyədə Azərbaycanda qeyd edilməsi Odlar Yurdunun ta qədimdən yüksək sivilizasiya mərkəzi olduğunu təsdiqlən əsas faktlardandır.

### Bəşəriyyətin ilk bayramı Azərbaycanda yaranıb?

Tədqiqatlara görə, Novruz bayramının tarixi təqribən 5-7 min il əvvələ gedib çıxır. Bu bayram haqda məlumatlara 7-8 min il yaşı olan ilk müqəddəs kitabda- Avestada, ilk peyğəmbər Zərdüştün qatlarında, 5-6 min illik tarixə dayanan Dədə Qorqud dastanlarında rast gəlinir.

Bahar bayramı ilə bağlı tarixə bəlli olan digər yazılı mənbələr 5 min il əvvələ aid hind, çin mənbələrinə, şumer mətnlərinə aiddir. Hindlərin bizim coğrafiya ilə qədim mədəni, dini, fəlsəfi bağlılığı elmə məlum faktlardandır. Şumerlərin də oraya şimaldan- tarixi Azərbaycan ərazilərindən köçüb gəldiyi artıq bir çox şumerşünas alimlər tərəfindən qəbul olunub.

Belə qəbul olunur ki, Novruz bayramı insanın, təbiətin, kainatın yaranış bayramıdır. Əslində, bu təsəvvürlərin kökündə zamanın, həyatın ”ölüb-dirilməsi” durur. Köhnə il ölür, yeni il doğulur. Kənd yerlərində qadınlar evdəki köhnə şeyləri təzələyirlər: yorğan-döşəyi yuyurlar, divarları ağardırlar, köhnə şeyləri atırlar. Bu mənada Novruzun əsas mahiyyəti təzələnmə, yeniləşmə bayramıdır.








Tədqiqatçıların çoxu Şərqin böyük hissəsində qeyd edilən Bahar Bayramının vətəninin Azərbaycan olduğunu vurğulayırlar. Bu bayramın dünyaya məhz buradan yayıldığı ehtimalı son dərəcə yüksəkdir.

Qədim yunan tarixçisi Plutarx yazırdı: ”Midiyalılarda buğda çox müqəddəs hesab edilir. Yazın əvvəllərində midiyalılar buğdanı cücərdirlər. Bu Omani adlanır”.

Qərbi hindistanlıların danışdıqları qədim sanskrit dilində Omani Sumani adlanır ki, bu da buğda kəlməsi ilə eyniləşir. Bu kəlmə dilimizdə Səməni adlanaraq Novruzun rəmzinə çevrilib. Yeri gəlmişkən, hər il yazda Hindistanda da Novruza oxşar kütləvi bayram şənlikləri keçirilir.

Bu gün Novruz bayramı bir çox şərq xalqları tərəfindən qeyd edilir, lakin bu bayramı ən möhtəşəm formada Azərbaycan xalqı keçirir- istər Azərbaycanda, istər də İranda yaşayan azərbaycanlılar. Çünki bu bayramın kökü bizə məxsusdur və dünyaya bizdən yayılmışdır.



### İlaxır çərşənbə - ”Danatma”- Günəşi qarşılamaq mərasimi

Bu bayramda əhali kənd-kənd, oba-oba göy çəmənliklərdə, çay kənarında toplaşır, çalır-oynayırlar. Qaranlıq düşdükdən sonra tonqallar qalanır və üzərindən hoppanırlar. Bu günlərdə aşıqlar xalq qarşısında çıxış edir, Novruz mahnıları, dastanlardan parçalar oxuyurdular.

Novruz gününə Hürmüz günü, yəni, Tanrı günü deyilərdi. Tanrı gününə hazırlaşan insanlar çərşənbələrdə maddi yaradılışın bazasını təşkil edən 4 müqəddəs ünsürləsu, od, hava və torpaqla pak olma mərasimləri keçirər, ruhu ilə bərabər öz vücudunu da təmizləyərdi. Axırıncı, ilaxır çərşənbə gecəsi ən əziz çərşənbə hesab olunur. Bu cərşənbə Danatma adlanır. Həmin gecə hec kim yatmaz, çillə keçirərdilər.

Günəş qədim insanların müqəddəs saydığı və Tanrının dünyanı yaratdığı zaman insan oğluna bəxş etdiyi ən vacib səma cismidir. Ona görə də 4 müqəddəs ünsürə həsr olunan çərşənbələrdən sonra Böyük Bayram- Novruz gecəsi olurdu və gecəylə gündüzün tam bərabərləşdiyi bu gün həm də Günəşə həsr olunurdu.

Bu gecə insanın Yaradana öz sevgisini göstərmək gecəsidir. Qədimdə həmin gecə insanlar bir yerə yığışar, sözlə-sazla Tanrını mədh edərdilər. Bu dolayısı ilə insanların Uca Tanrıya ehtiramı və yaradılışa görə Ona minnətdarlığıdır.

### Novruz elmi, mifoloji, kosmoqonik biliklərə əsaslanır

Novruz bayramının nəyə görə məhz martın 21-də qeyd olunması çox mətləblərə aydınlıq gətirir. Məhz bu gün astronomik təqvim ili başlayır. Bu fakt sübut edir ki xalqımız ta qədim zamanlardan yüksək kosmoqonik və astronomik biliklərə, kainat haqda təsəvvürlərə malik idi.

Bu haqda qədim biliklər və belə dəqiqlik yalnız heyrət doğura bilər. Dünyanın ən qədim müqəddəs bayramını yaradan, Tanrının və Təbiətin şəninə keçirilən mükəmməl mahiyyətə malik mərasimləri reallaşdıran, bunu minillər boyu yaşadan bir xalqın övladı olmaqla fəxr etməyə dəyər.

Novruzun mahiyyəti əslində, qondarma tarixçilərin dediyi kimi təkcə təbiətin oyanmasından ibarət ola bilməz. Çünki, tarixi faktdır ki xalqımız ta qədimdən zəngin biliklərə və təktanrılı dini görüşlərə sahib olublar. Ona görə də, xalqın ən böyük və müqəddəs bayramı da məhz bu faktorların əsasında formalaşa bilərdi. Avestanı öyrənəndə bu qənaətə gəlmək asan olur.

Novruz bayramı zərdüştlükdən də qədim tarixə dayansa da, Zərdüşt dini ilə sıx bağlı olub və bu bağlılıq ”Avesta”da da əks olub. Bu, həm də təbiətin və insanın yaranma bayramı, işığın-Ahuramazdanın qaranlığa-Əhrimənə qələbə bayramı və nəticədə günlərin (işığın) uzanması bayramıdır.

### Novruz çərşənbələrinin mahiyyəti

Ulu babalarımız Novruz bayramında və onun 4 ünsürə aid edilən çərşənbələrində ocaqlar yandırar, Tanrının ən güclü maddi enerjisi saydıqları Odun vasitəsilə Tanrıya Onun öz nemətlərindən qansız qurbanlar verərlərmiş.

*Ardı Səh. 13*

# Yaradılış bayramının elmi, mədəni, mənəvi mahiyyəti

## Novruz bayramı insanlığın, sülhün, humanizmin, mənəviyyatın- bir sözlə yaradılışın bütün dəyərlərinin ən qədim və ən möhtəşəm şah əsəridir

Əvvəli Səh. 12

(Bu sətirlərin müəllifinin bayramın bu əsas elementi- Odun vasitəsilə Tanrıya qansız qurban mərasimi ilə bağlı 20 il əvvəl Tovuzda səhnələşdirərək çəkdiyi qısametrajlı televiziya filminə buradan baxa bilərsiniz-
https://www.youtube.com/watch?v=H54k30G8WiE

Su, Od, Torpaq və Yel çərşənbələrində insanlar bu ünsürlərin vasitəsilə ruhi cəhətdən təmizlənərmişlər. Məsələn, Od çərşənbəsində odun üzərindən tullanmaqla, su çərşənbəsində soyuq su ilə yuyunmaqla, torpaq çərşənbəsində həyətdə lağım qazıb içindən sürünərək keçməklə, yel çərşənbəsində isə açıq havada çox gəzməklə təmizlənərmişlər.

Od çərşənbəsində insanlar tonqalın dövrəsinə toplaşaraq Tanrıya Od vasitəsilə təbii nemətlərdən qansız qurbanlar verər, sonra da hərə öz məşəlini yandırıb ocaqlarını alışdırmaq üçün evlərinə tələsərdilər.

Torpaq çərşənbəsində qəbiristanlıqlara və müqəddəs yerlərə ziyarətə gedilir, atababaların əziz ruhunu şad etmek və ehtiram bildirmək üçün məzarların üzərinə bayram payı düzülür, ətrafında məşəllər və şamlar yandırılır. Bu qədim ənənəni Tovuz televiziyasında çalışarkən Düz Qırıqlı kəndində hazırladığımız süjetdə göstərmişik. Bu cür səhnələr bizə Dədə Qorqut dastanlarından da tanışdır.

Müqəddəs günlərin çərşənbə axşamı seçilməsinin isə mahiyyəti bundan ibarətdir ki, qədim dini-fəlsəfi biliklərə əsasən, Tanrı dünyanı yaradanda həftənin ilk günündə hazırlıq işlərini görmüş, ikinci gün (çərşənbə axşamı) yaratmağa başlamışdı: üçüncü gün su, dördüncü gün od, beşinci gün torpaqla bağlanan varlıqları yaratmış; altıncı gün yaranışların hamısına ruh (can) vermiş, yeddinci gün isə istirahət etmişdi. Bu inama görə, bütün İlahi yaradıcılıq işlərinin bünövrəsinin qoyulması çərşənbə axşamına düşür.









### Mənəviyyat və humanizm bayramı

Bayram günlərində imkansızlara yardım edilər, küsülülər barışar, yurdda sülh və əmin-amanlıq hökm sürərmiş. Novruzun öz spesifik süfrəsi var. Burada əsasən bitkilərdən hazırlanmış yeməklər süfrəyə verilir. Bu yeməklərin şahı təbii ki xalqımızın kulinariyasında ən dəyərli yemək sayılan aşdır. Novruz aşı xüsusi formada müxtəlif meyvə qurulularından ibarət qara ilə bəzədilir və ətrafına şamlar düzülür. Bundan əlavə, hər evdə Novruz xonçası hazırlanır. Bu xonça xeyli çeşiddə meyvələr, şirnilər, qoz-fındıq boyanmış yumurtalar və s. nemətlərlə bəzədilir, kənarında şamlar yandırılır. Yeri gəlmişkən, yumurta həyat rəmzi sayılır və onun boyanması həyatın çalarlarına işarədir. Paxlava, şəkərbura, badambura, qoğal, qurabiyyə kimi şirniyyatlar təbiətin və qədim mifologiyamızın simvolları ilə bəzədilir. Məsələn, şəkərbura butanı ifadə edir.

Bahar bayramının atrubutları da zəngindir- "Atıl-Batıl", "Kosa-kosa", "Yeddiləvin", "Səməni", "Cıdır", "Od qalama və üstündən atılma", "Axar su başına getmə və su üstündən atılma", "Evə təzə il suyu gətirmə", "Qulaq falına çıxma" və s. kimi adətləri bu gün Azərbaycanda və digər yerlərdə yaşadılmaqdadır.

Novruz insanları azı 1 ay xoş əhval-ruhiyyədə və həm fiziki, həm də ruhi cəhətdən təmiz formada saxlayır. Çərşənbələrdə hamı bir-birinə pay-püsk aparır, qonaq gedir bayramlaşırlar. Bu ay ərzində ancaq xoş sözlər danışır, xeyir işlər görülür, küsülülər barışdırılır.

Uşaqlar evlərin qapısına torba atırlar, ev yiyəsi də onların bayram payını qoyur torbanın içinə. Bu bayramda qapı pusma, səhərədək çillə keçirilməsi və s. zəngin adətənənələr var ki saymaqla qurtarmaz. Kosa, bahar qız və keçəlin ifasında nümayiş etdirilən tamaşalar isə dünyanın ilk xalq teatrıdır, təbiət hadisələrinin dramatikləşdirilmiş formada səhləşdirilməsidir.

30 il bəzi yurdlarımız Ermənistanın işğalı atında qalmışdı, uca dağ başında 2 tonqal qalayıb birləşdik və torpaqlarımızı azad etdik. İndi yurumuzun bütün kəndlərində, şəhərlərində Novruz tonqalları qalanır.

### Sovet dövründə Novruz bayramı qadağan imiş?

Novruz bayramı tarixdə ilk dəfə olaraq Azərbaycanda rəsmi dövlət bayramı elan edilmişdir. Belə ki, Azərbaycan Şura Cumhuriyyətinin rəhbəri Nərimanovun təşəbbüsü ilə ilk dəfə Novruz bayramı 1921-ci ildə dövlət səviyyəsində qeyd edilmiş və həmin günü qeyri iş günü elan edilmişdir.

1931-ci ilə kimi Novruz Azərbaycanda dövlət bayramı kimi qeyd edilmişdir və bu tarixdən sonra rəsmi dövlət bayramları siyahısından cıxarılmışdır. Ermənilərin davamlı təbliğatı ilə bunu dini bayram kimi göstərirdilər, bu səbəbdən SSRİ öz ideologiyasının ziddinə gedib dini bayramı dövlət bayramı kimi rəsmiləşdirə bilməzdi. Lakin sonra, xalqımızın layiqli oğulları, xüsusən də Şıxəli Qurbanov bunun belə olmadığını sübut edə bildi və 1967-ci ildən Bahar bayramı yenidən dövlət səviyyəsində keçirildi.

Bu şənliyin bəzi kadrlarına aşağıdakı videodan baxa bilərsiniz;
https://www.youtube.com/watch?v=kGSf5DSxUIc&t=15s

Müəyyən müddət dövlət bayramı kimi keçirilməsə də, bu heç də Novruzun qadağan edilməsi mənasına gəlmir, bu bayram hər zaman xalq tərəfindən acıq bir şəkildə, hec kəsdən gizlədilmədən tam sərbəst surətdə qeyd edilmişdir, sadəcə bi müddət rəsmi dövlət bayramı olmayıb.

Bizim uşaq olduğumuz 70-80-ci illərdə bayrami indikindən daha zəngin keçirirdikdəstə-dəstə uşaqlar küçələrdə məşəllərlə yürüş keçirir, yumurta döyüşü təşkil edir, tonqal ətrafında şeir və mahnılar oxuyardıq. Sonra valideynlərimizin verdiyi payları qonşulara aparırdıq, onların verdiyini də evə gətirərdik.

Novruz süfrəsi son dərəcə zəngin olardı, bu süfrədəki hər şeyin öz simvolik mənası, fəlsəfi mahiyyəti var idi. Onu da qeyd edək ki, əvvəllər Səmənini satmazdılar, hər kəs öz evində, öz əli ilə Səməni göyərdərdi. Çünki, Səməni evin, yurdun bolluq və bərəkət rəmzi sayılırdı. Təəssüf ki, getdikcə bayramın daha çox ənənələrini və rituallarını unuduruq və itiririk.

Bahar bayramı birmənalı olaraq, yaradılışın ad gününü, dünyanın yaranması və insanlara bəxş olunan nemətlərə görə Tanrıya minnətdarlığı özündə ehtiva edir. Ən qədim vətəni Azərbaycan olan Novruz bayramı elə bir zəngin xəzinədir ki bəşəriyyətə bundan qədimi və bundan möhtəşəmi hələ məlum deyil. YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınan bu bayram Yaradılış, İnsanlıq, Mənəviyyat, Sülh və Humanizm bayramı kimi dünya xalqlarının mədəniyyət xəzinəsində ən önəmli yerini saxlayır.

*Elçin Bayramlı*

# Erməni CİNAYƏTİ:

## Bakı metrosunda törədilən terror aktından 31 il ötür

***Terrorçuluq cinayətkarlığın ən təhlükəli formalarından biridir. Terrorizm siyasi, dini, ideoloji, iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni zorun, gücün, hədənin tətbiq olunması formasıdır. Azərbaycan xalqı 200 il ərzində erməni millətçi şovinistlərinin davamlı olaraq etnik təmizləmə, ağlasığmaz terror aktlarına və soyqırımı siyasətinə məruz qalmış, günahsız insanlar, qocalar, uşaqlar, hətta, hamilə qadınlar insanlığa sığmayan amansızlıqla, qəddarlıqla qətlə yetirilmişdir. Təəssüf ki, hələ də nüfuzlu beynəlxalq qurumlar və qüdrətli dövlətlər erməni terror təşkilatlarının törətdikləri vandal aktlara ciddi münasibət bildirməmiş, terrorizmə qarşı mübarizədə həmrəylik nümayiş etdirməmişlər.***

Dünyanın ən tanınmış terror təşkilatları sırasında Ermənistanın ASALA terror təşkilatının da yer aldığı hamıya bəllidir. ASALA, MAQ, "Erməni İttifaqı", "Erməni Azadlıq Cəbhəsi" terror təşkilatları ilə yanaşı, "Armenakan", "Hnçak", "Daşnaksütun" partiyalarının da proqramının əsasını terrorizm, terror üsulları təşkil edir. XIX əsrin sonları və XX əsrdə bu və digər erməni terror təşkilatları Azərbaycanda və Türkiyədə dəhşətli terror aktları törətmiş, on minlərlə günahsız insanı xüsusi amansızlıqla qətlə yetirmiş və ya ömürlük şikəst qalmalarına səbəb olmuşlar.









### 14 NƏFƏR HƏLAK OLUR, 49 NƏFƏR YARALANIR

Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. Bunlardan biri də 1994-cü il martın 19-da erməni xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında törədilən terror aktıdır ki, artıq həmin tarixdən 31 il ötür. Terror nəticəsində, 14 nəfər həlak olub, 49 nəfər yaralanıb. Həlak olanların arasında Azərbaycan Respublikasının xalq artisti Rafiq Babayev də var idi.



Məhkəmə sübut edib ki, 19 mart saat 13:00-də "20 Yanvar" metrostansiyasında saat mexanizmi ilə təchiz edilmiş əldədüzəlmə partlayıcı qurğu qatarın ilk vaqonunda, qatar dayanarkən partlayır. Terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanıb, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilib. Müəyyən olunub ki, "Sadval" separatçı təşkilatının həmin fəalları, 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olub, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak edib.

1992-ci ilin aprel-may aylarında 30 nəfər milliyyətcə ləzgi olan Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçib. İstintaq zamanı müəyyənləşdirilib ki, təxribatçılar təlimata uyğun olaraq, "20 Yanvar" stansiyası ilə yanaşı, Bakının "Nizami" kinoteatrında, Respublika Sarayında və Bakı Lampa zavodunda da partlayışlar törətməyi planlaşdırıblar.

"20 Yanvar" metrostansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilib.

Xatırladaq ki, 1994-cü ilin iyul ayının 3-də Bakı metrosunda ikinci terror aktı oldu. Saat 20:30-da "28 May" metrostansiyasından çıxan, "Gənclik" metrostansiyasının platformasına 500 metr qalmış, elektrik qatarını ikinci vaqonunda partlayış baş verir. Partlayışdan sonra qatarda yanğın olur. Terror aktı nəticəsində 13 nəfər həlak olmuş və 58 nəfər isə yaralanmışdır.

### DÜŞÜNÜLMÜŞ İNSAN QƏTLİ

Bu və ya digər erməni terror təşkilatlarının törətdikləri terror aktlarına nəzər salsaq, nələrin baş verdiyinin bir daha şahidinə çevrilərik: 16 sentyabr 1989-cu ildə "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır. 18 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan tələfatı olmuşdur. 11 iyul 1990-cı ildə "Tərtər-Kəlbəcər" sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə, 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır. 10 avqust 1990-cı ildə "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayətin təşkilatçıları A.Avanesyan və M.Tatevosyan cinayət məsuliyyətinə cəlb olunmuşlar. 30 noyabr 1990-cı ildə Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır. Bu terror aktlarını sadaladıqca bitmir. Hər biri neçə-neçə insan ölmünə səbəb olub.

Bəli, terror-düşünülmüş insan qətlidir. İnsanların qəsdən məhv edilməsi cəhdidir ki, bütün bu və ya digər hadisələri törədənlər də, məhz ermənilərdir, erməni terrorunun izləridir.

Çox təəssüfləndirici haldır ki, dünyanın inkişaf etmiş bir dövründə terrorizmin acı nəticələrini yaşayırıq. Xatırladaq ki, Azərbaycan, türk diplomatları zaman-zaman bu terror aktları ilə rastlaşıblar. Təkcə 1973-1984-cü illərdə xarici ölkələrdə fəaliyyət göstərən türk diplomatları və ailələri erməni terror təşkilatları tərəfindən genişmiqyaslı hücumlara məruz qalıblar. Məqsədli və amansızcasına törədilən 90 terror aktı nəticəsində 41 türk diplomat və ailə üzvü şəhid olub. Türkiyə diplomatiyası XX əsrin sonunda ən çox sayda və ağır nəticələr verən terror aktları ilə üz-üzə qalıb. Təəssüf ki, türk diplomatlarına qarşı bu bəşəri cinayətləri törədən erməni terrorçuların əksəriyyəti sonralar müxtəlif bəhanələrlə həbsdən azad ediliblər. Daha bir təəssüfləndirici məqam isə Ermənistanın həmin terrorçuları qəhrəmanlaşdıraraq terrora dəstək verməkdə davam etməsidir.

Bəzi mütəxəssislər terroru yeni bir siyasi sistemin qurulmasına dəstək olmaq üçün inqilabi hərəkatlara fokuslanan təhlükəli bir fəaliyyət növü kimi təqdim edirlər. Mənbələrdə göstərilir ki, İsrail tədqiqatçısı Natenyahu da qəsdən və sistematik şəkildə günahsız insanları öldürmək, xəsarət yetirmək və hədələməklə terrorun dünyadakı ən qorxunc insan fəaliyyəti olduğunu vurğulayır.

### BEYNƏLXALQ HÜQUQUN BÜTÜN NORMALARININ KOBUD ŞƏKİLDƏ POZULMASI

Bildiyimiz kimi, Azərbaycanın İrandakı səfirliyinə qarşı silahlı hücum oldu. Bu hücum beynəlxalq hüququn bütün normalarının kobud şəkildə pozulması deməkdir. Belə ki, 1961-ci il aprelin 18-də qəbul olunmuş diplomatik əlaqələr haqqında Vyana Konvensiyasında müəyyən edilmiş müddəalara əsasən, Azərbaycan Respublikasının səfirliyinin binasının və akkreditə olmuş əməkdaşlarının təhlükəsizliyini təmin etmək məhz İran dövlətinin də üzərinə düşən öhdəlikdir. Bu hadisə isə İranın terroru dəstəklədiyini nümayiş etdirmiş oldu. Azərbaycanın İrandakı səfirliyinə edilən hücum BMT, NATO, Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar tərəfindən qınanılmışdır. Eyni zamanda, 60-dan çox ölkənin dövlət başçıları, xarici işlər nazirləri və səfirləri tərəfindən bu silahlı hücum terror aktı kimi pislənmişdir. Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu BMT-nin 77-ci Baş Assambleyasının prezidenti Çaba Koroşi tərəfindən də pislənildi. Bunu BMT-nin mətbuat katibi Stefan Düjjarik gündəlik brifinqdə jurnalistin sualını cavablandırarkən bildirirmişdi.

Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini hələ də yaşayır. Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*

**ELMİN SONU**

(XV YAZI)

*(Əvvəli ötən saylarımızda)*

**Heyvanların yaradılmasında məqsəd nədir?**

”Allah hər heyvanı sudan yaratmışdır. Onların bəziləri qarın üstə sürünər, bəziləri iki ayaq üstə, bəziləri dörd ayaq üstə yeriyər..." (Quran, Nur surəsi, 24/45)

”Allah Adəmə adama tapşırdı ki, ”bağı becərsin və ona qulluq etsin" (Yaradılış. 2:15) Sonra Allah insanın yanına bütün yaratdığı heyvanları və quşları gətirdi ki, Adəmə onlara ad versin (Yaradılış. 2:19)

Heyvanların yaradılmasının məqsədi bioloji, ekoloji və fəlsəfi baxımdan yanaşılması vacib olan çoxşaxəli mövzudur. Bu yazıda heyvanların yaradılış prosesindəki yeri, ekosistemlərdəki rolları və digər canlı növlərinə (bitkilərə, insanlara və s.) təsirləri araşdırılacaqdır.

Heyvanlar ekosistemlərin tarazlığını qoruyan vacib elementlərdir. Hər bir növ ekosistem daxilində mürəkkəb qarşılıqlı əlaqələri dəstəkləyərək fərqli rol oynayır.

**Otyeyənlər:** Bitkiləri istehlak edərək bitki populyasiyalarına nəzarət edirlər.

**Ətyeyənlər:** Digər heyvanları ovlayaraq növlər arasında tarazlığı qoruyurlar.

**Parazitlər:** Yaşadıqları canlıların orqanizmində qidalanaraq ekosistemin dinamikasına təsir göstərirlər.

**Parçalayıcılar:** Ölü orqanizmləri parçalayaraq qidalanma dövriliyinə töhfə verirlər.

Bu rollar ekosistemlərin sağlam işləməsi üçün vacibdir.

Heyvanlar insan həyatında da çox mühüm yer tutur. İnsanlar heyvanlardan yemək, geyim, nəqliyyat və s. kimi ehtiyaclarını ödəmək üçün istifadə edirlər. Bundan əlavə, heyvanlar insanların mədəni və sosial həyatında mühüm rol oynayır.

**Ev heyvanları:** İnsanlarla emosional bağlar quraraq psixi sağlamlığa töhfə verir.

**Heyvandarlıq:** Kənd təsərrüfatı məhsulları istehsalı üçün mühüm əhəmiyyət kəsb edir.

**Vəhşi heyvanlar:** Ekoturizm və vəhşi təbiəti mühafizə layihələri vasitəsilə iqtisadi töhfələr verir.

Bu kontekstdə heyvanların yaradılmasında məqsəd təkcə bioloji hadisə deyil, həm də sosial və mədəni ölçüyə malikdir.

Bu səbəblərə görə heyvanların mühafizəsi və onların təbii yaşayış yerlərinin davamlılığı həm ekosistem sağlamlığı, həm də bəşəriyyət üçün kritik məsələlərdir. Heyvanların yaşayış yerlərinin məhv edilməsi biomüxtəlifliyin azalmasına və bununla da ekosistemlərin dağılmasına səbəb ola bilər. Buna görə də, heyvanların yaradılış məqsədi haqqında düşünmək bizə sadəcə olaraq elmi sorğusualdan başqa, insanlıq kimi məsuliyyətlərimizi də düşünməyimiz lazım olduğunu xatırladır.

Heyvanların yaradılması ilə bağlı dini və elmi nəzəriyyələr mövcuddur. Müqəddəs kitablarda insanların yaradılışından sonra başqa canlıların da torpaqdan və sudan yaradıldığı izah edilir. Quranda ”Biz hər canlını sudan yaratdıq" ayəsi var. İncildə deyilir: ”Qoy yer hər cür canlı məxluqları, ev və vəhşi heyvanları və sürünənləri törətsin". Tövratda deyilir: ”Canlılar sizin üçün yemək olacaq. Yaşıl bitkilər kimi hamısını sizə verirəm". Bunları nəzərə alsaq, dini mətnlərdə heyvanların ən əsas xüsusiyyəti insanların (həmçinin də bitkilərin) yaşamasına kömək etməkdir.

Elmi mənbələrdə heyvanların əmələ gəlməsinin müəyyən izahı var (həm Darvinin, həm də Lamarkın baxışlarına əsasən)- yerin soyuması, azotun əmələ gəlməsi və s. şərtlər təmin olunduqdan sonra dünya canlılar üçün əlverişli hala gəlib. İlk canlıların suda əmələ gəldiyi qənaəti hasil olunub.

Quranda bu haqda belə deyilir: ”Allah hər heyvanı sudan yaratmışdır. Onların bəziləri qarın üstə sürünər, bəziləri iki ayaq üstə, bəziləri dörd ayaq üstə yeriyər..." (”Nur", 24/45)

Uca Yaradan quşların yaradılmasının və qanadları ilə səmada uçmasının Onun varlığına dəlil olduğunu bildirir: ”Məgər onlar səmanın havasında və onların uçuşu üçün uyğunlaşdırılmış çöldə uçan quşlara baxmadılarmı? Onları orada Allahdan başqa heç kim saxlaya bilməz. Şübhəsiz ki, bunda iman gətirən bir qövm üçün dəlillər vardır". (Nəhl, 16/79)

Heyvanlar aləmini araşdırdığımız zaman bizi heyrətləndirən bir çox maraqlı şeylərlə rastlaşırıq. Bunlar o qədər maraqlıdır ki, onları sadəcə olaraq ”instinkt" adlandırmaq mümkün deyil. Quşlarda vətənlərinə qayıtmaq hissi var. Məsələn, qaranquşlar payızda cənub ölkələrinə köç edirlər. Ancaq gələn yaz onlar əvvəlki yuvalarına qayıdırlar. Payızda qışın daha isti keçdiyi cənub bölgələrinə təkcə qaranquşlar deyil, bir çox başqa quşlar da köç edir. Bu quşlar tez-tez dənizlər və çöllər üzərində minlərlə km uçur və heç vaxt yollarını itirmirlər. Sanki təbii naviqasiya sistemləri var.

Heyvanların də bir sosial funksiyası, ictimai birlikləri, kollektiv iş prinsipləri var- təkcə arıları və qarışqaları göstərmək kifayətdir. Heyvanlara xas sosial həyat obrazlarına dair çoxlu digər nümunələr də var. Məsələn, maral, balıq, quş, canavar sürüləri buna ən gözəl nümunədir. Qurani-Kərimdə heyvanların və quşların da insanlar kimi birliklər təşkil etdiyini xəbər verir. Bu cəmiyyət müəyyən mənada insanlarınkına bənzəyir. Onların bu işlərini nizama salan bir növ zəkaları var.

”Yer üzündə gəzən heyvanlar və qanadları ilə uçan quşlar sizin kimi ümmətlərdir" (Quran, Ənam, 6/38).

Qədim alimlər heyvanların və quşların zəkasını və ağlını qəbul etməmiş, onlarda görülən ehtiyat və düşüncəni fitrətin nəticəsi hesab etmişlər. Halbuki, son dövrlərdə heyvanların da müəyyən qədər ağıl və düşüncəyə malik olduğu təsdiq edilmişdir.

Heyvanların davranışını tədqiq edən ekspertlər (etoloqlar) quşların və məməlilərin sosial quruluşunda çox sərt iyerarxiyanın olduğunu aşkar ediblər.

Müxtəlif növ heyvanlar bir-biri ilə anlaşa və birlikdə yaşaya bilər. Bu formalar 3 kateqoriyaya bölünür;

1. Bir növ digərindən faydalanır, lakin ikinci növ bu tərəfdaşlıqdan faydalanmır (kommensalizm).

2. Növlər bir-birinə qarşılıqlı fayda verirlər (simbioz).

3. Bir növ tam şəkildə digərlərinin hesabına yaşayır (parazitar).

Heyvanlar və bitkilər aləmləri arasında da bir növ əməkdaşlıq mövcuddur. Məlumdur ki, bəzi həşərat və quşlar bitkilərin tozlanmasında mühüm rol oynayır. Məsələn, çiçəklərin ətrafında dolaşan arı nektar və çiçək tozcuqlarını axtarmaq üçün bir çiçəyə qonur. Bu əsnada üzərinə düşən tozcuqları düşdüyü eyni növdən başqa bir çiçəyə yayar. Beləliklə, bitkinin tozlanmasına, mayalanmasına və çoxalmasına səbəb olur.

Tropiklərdə bu işi bəzi quşlar, məsələn, kolibri, tutuquşular və yarasalar görür. Quşların köməyi ilə tozlanan çiçəklər bəzən onlarla eyni rəngdə olur. Bəzi çiçəklər, məsələn, orkidə, böcəklərə bənzəyir. Heyvanlar tozlanmada mühüm rol oynasalar da, əsas amil küləkdir.

Hər bir heyvan növünün öz dili var. Məsələn, itin hürməsi, pişiyin miyovlaması, quşun cingiltisi ünsiyyət vasitəsidir. Bizə lazımsız səs-küy kimi görünən bu səslər onların danışması və ünsiyyəti ola bilər. Bəzi heyvanlar da insan sözlərini başa düşür və cavab verir. Məsələn, itlər, tutuquşular bu mövzuda çox bacarıqlıdırlar.

Hamımız bilirik ki, insanlar bəzi heyvan növləri ilə çox yaxşı anlaşır. Məsələn, pişik və it kimi ev heyvanları öz adlarından başqa sahiblərinin dediyi bir çox sözləri başa düşə bilirlər. Heyvan psixologiyası mütəxəssisləri xüsusilə meymunlarla dialoq qurmağa və bu dialoqu daha da irəli aparmağa çalışıblar. Onlar bu təcrübələrdə əhəmiyyətli irəliləyiş əldə ediblər. Onlar aşkar ediblər ki, şimpanze kar və lallara xas olan işarə dili ilə bəzi məsələləri başa düşə bilər.

Bəzi ev heyvanlarının sahiblərinin dediklərinin çoxunu başa düşməsi düşündürücüdür. Ona görə də heyvanların həyatını sadəcə ”instinkt"lə izah etmək böyük haqsızlıqdır. Buradan belə qənaətə gəlmək olar ki, onların da öz ağılları, anlayışları var.

İnsanlar özlərini necə qoruyacağını bildiyi kimi, bir çox canlılar da özlərini qoruyur. Buna çoxlu misallar gətirmək olar. Dr. Arçibald Roteldoq ağır yaralanan vəhşi heyvanı əhliləşdirir. Həkim yaranı yuyur və lazım olduqda sarğı edir. Amma heyvan, sanki həkimin düzəltdiyi sarğı xoşuna gəlmir, onu açır, dili ilə yaranı yavaşca yalayır, günəşə, təmiz havaya qoyur. Yara da qısa müddətdə sağalır. Bu, Yaradanın heyvanlara bəxş etdiyi bir hiss və davranışdır.

Ayılar xəstələnəndə bəzi bitkilərin kökünü qazıb yeyərək özlərini müalicə edirlər. İlan həzm üçün ətirşah liflərinin köklərini udur. Heyvanlar və quşlar malyariyaya yoluxduqda günəşli və açıq yerlərdə məskunlaşırlar. Onlar zərərli bir şey yediklərini başa düşdükdə, tam qusma və ya ishala səbəb olacaq bitkiləri yeyirlər. Məsələn, kirpilər zəhərli ilanı yedikdən sonra xüsusi bir bitkinin bu zəhəri neytrallaşdırdığını dərk edərək ondan yeyir və zərər görmür. Şüursuz adlandırılan heyvan hansı ilanın zəhərli olduğunu, bu zəhərin kimyəvi tərkibinin necə olduğunu, onu neytrallaşdıran maddələrin nələr olduğunu və onların hansı bitkinin tərkibində olduğunu haradan bilir?

Heyvan qrupları öz təhlükəsizliklərini təmin etmək üçün düşünülmüş texnologiyalar tətbiq edirlər. Birlikdə yaşayan heyvanlar və quşlar qrupları onları arxadan qorumaq və öndəki yolu kəşf etmək üçün xüsusi seçilmiş üzvlər təyin edir. Məsələn, fil qrupları təyinat yerlərində su və yemək olub olmadığını yoxlamaq üçün kəşfiyyatçılar göndərirlər. Ən güclü erkəklər quş sürülərini qoruyur. Ceyranlarda mühafizəçilər arxa tərəfdə yerləşir. Çünki onların ən təhlükəli düşməni olan canavarlar adətən arxadan hücuma keçirlər. İki ceyran otlayanda növbə çəkirlər. Biri otlayır, bu biri keşik çəkir, sonra bu biri otlayır, o biri isə keşik çəkir. Çəyirtkələr də kəşfiyyata bir dəstə göndərir. Afrikada vəhşi camışlar bütün yolları nəzarət altında saxlamaq üçün meşənin hündür yerində mühafizəçilərini qoyurlar.

Köçəri quşların əksəriyyəti uyğun qidalanma və iqlim şəraiti tapmaq, ya da balalarının böyüməsi üçün lazımi şərait yaratmaq üçün köç edir. Amma miqrasiyanın səbəbi təkcə ərzaq qıtlığı deyil. Məsələn, qaranquşlar avqust ayında köç edir, hava hələ də həşəratlarla doludur. Əslində günlərin qısalması quşların gözlərinə, beyinlərinə, beyindəki hipotalamusa və hipofiz bezlərinə təsir edir. Bunlar reproduktiv vəzlərinə də təsir edir. Bu səbəbdən günlər qısalmamış köç etmək lazımdır.

Bəzi heyvanlarda insanların anlamaqda çətinlik çəkdiyi müəyyən davranışlar var. Məsələn, Ekvatorial Afrikadan qayıdan bir qaranquş neçə min km məsafəni düzgün keçərək keçən il vətənində qurduğu yuvanı necə tapa bilər? Araşdırmalar göstərdi ki, köçəri quşlar üçün əsas istinad nöqtəsi Günəş, Ay və ulduzlardır. Quşlar hava buludlu olduqda quru, dağlar, çaylar, sahillər və s. ilə hərəkət edirlər. Onlar uçuş zamanı bucaq tipli formadan istifadə edirlər ki, bu havanın müqavimət qabiliyyətinin azaldılması və enerjiyə qənaəti təmin edir. Bir çox növlər Yerin maqnit sahəsindən köməkçi vasitə kimi istifadə edirlər. Quşların öz yerlərini təyin etmək və orientasiya götürmək qabiliyyəti əsasən anadangəlmədir.

İnsanların ruzi olaraq istifadə etdiyi ən vacib qidalardan biri də heyvan mənşəli qidalardır. Bəzi heyvanlardan nəqliyyat və təsərrüfat işləri üçün istifadə edilir. Bəzilərinin dərisindən, yunundan və tükündən istifadə olunur. Heyvanlar müxtəlif aspektlərdən insanlar üçün çox faydalı canlılardır.

Quranda belə buyurulur: ”Sizin üçün heyvanları yaradan Allahdır, bəzilərini minik, bəzilərini isə yemək. Onların sizin üçün daha çox faydaları var. Onlara minməklə ürəyinizin istədiyi yerə çata bilərsiniz ” (Mömin, 40/79-81)

(Ardı olacaq)

*Elçin Bayramlı*



SƏS
19 mart
2025-ci il

# “Azərbaycanda sosial şəbəkələr zəifləməyə başlayıb”

## Yazıçı-kulturoloq bir sıra məsələlərə aydınlıq gətirdi

**“Hazırda günümüzün reallığına çevrilmiş sosial şəbəkələr, internet, virtual ünsiyyət və münasibət biz istəsək- istəməsək də həyatımızın gündəlik vasitəsinə çevirilib”. Bu sözləri SİA-ya açıqlamasında yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.**



O bildirib ki, bəzən deyirlər ki, internet və sosial şəbəkələr insanları bir-birindən ayırır, onları assosial edir: ”Bu düzgün deyil, insanları şəbəkə formasında birləşdirməklə onların inkişafına, onların komfortuna təsir göstərə biləcək bir mərhələyə qədəm qoymuşuq. Hansı cəmiyyətdə, hansı ölkələrdə, hansı toplumlarda təhsil, elm, mədəniyyət, etik, estetik səviyyə yüksəkdirsə, onlar sosial şəbəkənin də özünün inkişafına yönələcəklər. Məsələn, aparıcı dünya ölkələrində, kapitalizm ölkələrində və Qərb ölkələrində artıq sosial şəbəkələr həm də bir öyrətmə, maarifləndirmə, məlumatın yayılmasına, kütləvi informasiya vasitəsinin yeni bir formatına çevrilib. Təəssüflər olsun ki, bu bizdə belə deyil. Sosial şəbəkədən qorxmaq lazım deyil, sosial şəbəkələr Azərbaycan, insan və dünya insanını bir birinə yaxınlaşdırır. Məsələn, biz illərlə ünsiyyət qura bilmədiyimiz, gedə bilmədiyimiz Amerikada, Avropada, kəndimizdə yaşayan şəxslər ilə canlı ünsiyyət qururuq. Görüntülü münasibət bəsləyirik, bir-birimizin bayramını təbrik edirik. Düşünürəm ki, sosial ünsiyyət daha önəmlidir. Sosial şəbəkələrdə olan virtual ünsiyyət daha çevik, daha böyük imkanlar verir. Onsuz da insanlar real həyatda bir-birindən uzaqlaşırlar. 1980-ci illərdən etibarən hər kəs şəhərə can atırdı və hər kəsin şəhərdə iki otaqlı evi var idi. Qonşuları belə tanımırdılar. Sosial şəbəkə əksinə insanları bir-birinə yaxınlaşdırmağa başladı. İnsanlar bir-birinin problemlərini, məsələlərini, sevinclərini, toy və yas mərasimləri ilə bağlı məlumatları bir-birinə daha tez ötürür. Hətta indi məktəblərin virtual variantı yaranıb. Sosial şəbəkələrdə ayrıca kurslar, psixoloji mərkəzlər, uşaq öyrətmə mərkəzləri etik, estetik kurslar yaradılıb. Bunun nəyi pisdir? Yetərki, insan öyrənmək istəsin, dəyişmək istəsin mədəni olsun, yetərki, insan verilən imkanlarda maksimum istifadə etsin. Avropada sosial şəbəkələr, virtual universitet akademiyalar səviyyəsində inkişaf edib. Biz hələ də bir-birimizə nifrət püskürməklə tanınmış insanların uğurlarına sevinməmək üçün onların paylaşdığı materialların altında şər, böhtan, təhqir, aşağılanma şərhlər yazırlar.

Azərbaycan dilli insanların böyük əksəriyyəti sanki qara kütlədən ibarətdir. Biz heç vaxt intellektualın, tanınmış adamın digər tanınmış adam tərəfindən kəskin müdafiə edilməsinin şahidi olmuruq. Amma qara kütlənin təsiri altına düşüb bizim tanınmışları söyən dostları görürük. Baxın virtual nifrət, şiddət, psixoloji və sosial şiddət bizi sosial şəbəkələrə arxa çevirməyə məcbur edir. Azərbaycanda sosial şəbəkələr zəifləməyə başlayıb. İnsanlar sosial şəbəkədən qaçmağa başlayıb. Bu öz tənhalığını, öz virtual tənhalığını, yalnızlığını göstərən insanlardan ibarət cəmiyyətə yiyələnirik. Uşaqlar yeni nəsildə belə böyüyür. Əlbəttə sosial şəbəkələrin müsbət və mənfi tərəfləri də var. Müsbət tərəfləri qeyd etdim, səviyyəli insanlar, elmi, təhsili, mədəni səviyyəsi yüksək olan şəxslərdən ibarət toplular sosial şəbəkənin müsbət tərəfindən istifadə edir. Amma təhsilə fikir verməyən, diplom xatirinə, kağız xatirinə, ata ananın pulu ilə oxuyan cəmiyyət ki var onlardan biri də Azərbaycan cəmiyyətidir. Bir cəmiyyətin inkişafı üçün ən azı 20 % intellektual səviyyəsi yüksək olan insanlardan ibarət olmalıdır. Dində isə sosial şəbəkələrdə nifrət, savaş, özlərini daha çox göstərmə, eqo, narsizm kimi cəhətlərin virtual variantın biz şahidi oluruq. İnsanlar artıq real həyatda ünsiyyət, münasibət görmürlər. Çünki əvvələr hərəmizin səkkiz, doqquz əmi bibi qardaş ailə üzvləri çox idi. İndi hər kəsin bir, iki və onların çoxusu da xaricdə yaşayır. Onların uşaqları artıq bir-biri ilə əlaqə yaratmırlar. Bayramdan bayrama atanın təsiri ilə nənəni, babanı, əmini təbrik etməklə kifayətlənirlər. Amma real həyatda onların öz mühiti var. O mühitə uyğun insanlar ilə ünsiyyət qururlar. Bu insanlarında sayı get-gedə azalır. Həm virtual aləmdə, həm də real aləmdə insanlar özlərinə qapanırlar. Cəmiyyətə və ətraf mühitə dost tanış və qohumlara artıq güvənmirlər. Çünki o qədər insanlar saxtakarlıq edirlər ki, real həyatda artıq heç kim bir-birinə inanmır. Virtual aləmdə də biz özümüz üçün dost, tanış, qohum-əqrəba axtarışına gedəndə özümüzü virtual aldatsaq da, yenə də eyni məsələlərdir. Ona görə də sosial şəbəkələrdə real ünsiyyətin müsbət, mənfi təsiri ilə bağlı fikir söyləyəndə birtərəfli fikir söyləmək mümkün deyildir”.

***Samirə Nəsirova***

## ELAN

### ”Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

“Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsini rəhbər tutaraq, ”Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - ”ABB” ASC) İdarə Heyəti Sizin nəzərinizə çatdırır ki, 07.05.2025-ci il tarixində Bankın səhmdarlarının növbəti ümumi yığıncağı (bundan sonra - Ümumi Yığıncaq) keçiriləcəkdir. Bununla yanaşı bildiririk ki, ”ABB” ASC-nin Nizamnaməsinin 8.10-cu maddəsinə əsasən səsvermənin qiyabi şəkildə, Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi tərəfindən İnvestor Portalında (invp.e-mdm.gov.az) yaradılmış şəxsi kabinet vasitəsilə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxil edilir:

1. ”ABB” ASC-nin kənar auditor tərəfindən yoxlanılmış 2024-cü ilin maliyyə hesabatları və idarəetmə hesabatının təsdiq edilməsi;

2. 2024-cü ilin maliyyə nəticələrinə əsasən ”ABB” ASC-nin səhmdarlarına dividendin ödənilməsi;

3. ”ABB” ASC-nin Audit Komitəsinin müstəqil kənar üzvlərinin mükafatlandırılması

Ümumi yığıncağın keçirilməsinə dair bildiriş 22.03.2025-ci il tarixindən, gündəliyə çıxarılan məsələlər üzrə müvafiq materiallar və səsvermə bülleteni isə 15.04.2025-ci il tarixindən hər bir səhmdar üçün Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi tərəfindən İnvestor Portalında yaradılan şəxsi kabinetində yerləşdiriləcəkdir (invp.e-mdm.gov.az).

Gündəlikdə olan məsələlərə dair münasibətinizi şəxsi kabinet vasitəsilə 15.04.2025-ci il tarixindən 07.05.2025-ci il tarixinədək elektron qaydada bildirməklə və ya bülleteni çap edərək müvafiq qaydada dolduraraq (məsələlərə münasibətinizi dəqiq və şərtsiz bildirmək (lehinə, əleyhinə, bitərəf) və imzanız qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və s.) təsdiq edilmək, habelə şəxsiyyət vəsiqənizin surətini təqdim etmək şərti ilə) qapalı zərfdə Bakı şəhəri, Nizami küçəsi 67 ünvanına 07.05.2025-ci il tarixədək göndərməklə səsvermədə qiyabi iştirak edə bilərsiniz Yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılması, eləcə də elektron qaydada verilmiş səslərin sayılması ümumi yığıncağın keçirildiyi gün həyata keçiriləcəkdir.

***”ABB” ASC-nin İdarə Heyəti***

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK

Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Magistratura təhsili bütün istiqamətlərdə üstünlükdür”

“Magistratura təhsili önəmlidir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Rizvan Fikrətoğlu deyib. O bildirib ki, əgər bir insan elmi fəaliyyətlə məşğul olursa, elmi nailiyyət əldə etmək istəyirsə, yaxud da, hər hansı sahə üzrə özünü mütəxəssis kimi görmək istəyirsə, magistratura təhsili önəmlidir: ”Digər dərəcələri almaq üçün magistr keçiddir. Artıq magistraturanı bitirənə master dərəcəsi verilir. Amma bizdə təəssüf ki, magistratura daha çox oğlanlar üçün əsgərlikdən iki il yubanmaq, xanımlar üçünsə ad xatirinə oxunur. Çünki görürük ki, magistraturanı bitirənlərin böyük əksəriyyəti



elmi fəaliyyəti davam etdirmək istəmirlər. Bu bir növ dəb halını alıb. Amma sonrası davam etmir. Hər halda magistratura təhsili önəmlidir.

Magistraturanı ancaq oxumaq üçün davam etdirmirlər. Dövlət orqanlarında elə rəhbər vəzifələr var ki, orada magistratura təhsili tələb olunur. Hətta təhsillərini davam etdirməsələr belə, bütün istiqamətlərdən baxdıqda magistratura təhsili üstünlükdür. Düşünürəm ki, gənclərin imkanı, zamanı varsa, mümkün qədər dərəcələrini alsınlar. Nə zamansa işdə, təhsildə davam etdirmək istəsələr, bu, vacib olacaq”.

***Söylü Ağazadə***

## BAŞSAĞLIĞI

Məmmədhəsən Məmmədov ailə üzvləri ilə birlikdə Rəhim Xəlilova qardaşı **Xəlilov Rakif Tofiq oğlunun** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**